# YEŞUA PEYĞƏMBƏRİN KİTABI

## GİRİŞ

*«Yeşua»* Kitabının məzmunu Musanın davamçısı olan Yeşuanın başçılığı ilə İsrail xalqının Kənan torpağını zəbt etmə tarixindən bəhs edir. Bu kitabda yazılan məşhur hadisələr İsrail xalqının İordan çayının keçməsi, Yerixonun süqutu, Ay şəhəri uğrunda döyüş, Kənan torpağının on iki qəbilə arasında bölünməsi və Allahla xalqının arasında əhdin təzələnməsidir. Müqəddəs Kitabın ən geniş yayılan ayələrindən biri *«Yeşua»* Kitabının 24:15-ci ayəsində yazılmışdır: «... bu gün kimə qulluq edəcəyinizi özünüz seçin. ...Amma mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək».

**Kitabın məzmunu:**

1:1–12:24 Kənan torpağının ələ keçirilməsi
13:1–21:45 Torpağın bölünüb paylanması
 13:1-33 İordan çayının şərqindəki torpaq
 14:1–19:51 İordan çayının qərbindəki torpaq
 20:1-9 Sığınacaq üçün şəhərlər
 21:1-45 Levililərin şəhərləri
22:1-34 Şərq qəbilələrinin qayıtması
23:1-6 Yeşuanın vəsiyyəti
24:1-33 Şekemdə yenidən bağlanan əhd

*Rəbb Yeşuaya vəd olunmuş torpağı tutmasını əmr edir*

1 Rəbbin qulu Musanın ölümündən sonra Rəbb
Musanın köməkçisi Nun oğlu Yeşuaya belə dedi:
2 «Qulum Musa öldü. İndi qalx, sən və bütün bu
xalq İordan çayını keçib İsrail övladlarına verəcəyim
torpağa gedin. 3 * Musaya dediyim kimi qədəm
qoyacağınız hər yeri sizə vermişəm. 4 Bu səhra
ilə Livandan böyük çaya – Fərat çayına qədər,
Xetlilərin bütün ölkəsi və günbatan tərəfdən isə
Böyük dənizə* qədər yer sizin torpaqlarınız ola-
caq. 5 * Bütün ömrün boyu heç kəs sənə qarşı
çıxa bilməyəcək. Musa ilə olduğum kimi səninlə də
olacağam, səni atmayacağam və tərk etməyəcəyəm.
6 * Möhkəm və cəsarətli ol, çünki atalarına vermək
üçün and içdiyim bu torpağı bu xalqa irs olaraq
sən verəcəksən. 7 Qulum Musanın sənə tapşırdığı
Qanuna tam və dəqiq əməl etmək üçün cəsarətli və
çox möhkəm ol. Ondan nə sağa, nə də sola dön ki,
hara getsən, uğur qazanasan. 8 Bu Qanun kitabının
sözləri dilindən düşməsin, orada yazılan hər şeyə
dəqiq əməl etmək üçün gecə-gündüz onun üzərində
düşün. Onda yolun uğurlu olacaq və müvəffəqiyyət
qazanacaqsan. 9 Sənə möhkəm və cəsarətli olmağı
əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan
düşmə, çünki Allahın Rəbb gedəcəyin hər yerdə
səninlədir».
10 Yeşua xalqın məmurlarına əmr edib dedi:
11 «Ordugahı gəzin və xalqa əmr edib deyin:
“Özünüzə azuqə hazırlayın, çünki üç gün ərzində
İordan çayını keçib Allahınız Rəbbin sizə mülk

* **1:3** Qanun. 11:24-25 * **1:4** Böyük dəniz – Aralıq dənizi. * **1:5** Qanun. 31:6,8; İbr. 13:5 * **1:6** Qanun. 31:6,7,23

olaraq verdiyi torpağa girərək oraya sahib
olacaqsınız”».

### *Torpaq alan İsrail qəbilələri də Yeşua ilə gedir*

12 * Yeşua Ruvenlilərə, Qadlılara, Menaşşe
qəbiləsinin yarısına belə dedi: 13 «Yadınıza salın
ki, Rəbbin qulu Musa sizə belə vəsiyyət etmişdi:
“Allahınız Rəbb rahatlığınız üçün bu torpağı sizə
verdi”. 14 Arvadlarınız, uşaqlarınız, sürüləriniz
İordan çayının bu tayında Musanın sizə verdiyi
torpaqda qalsın. Ancaq siz – bütün igid adamlar
silahlanıb qardaşlarınızın qabağında o taya keçin.
15 Rəbb sizə rahatlıq verdiyi kimi soydaşlarınıza da
rahatlıq verənə qədər və Allahınız Rəbbin verdiyi
torpağa sahib olana qədər onlara kömək edin.
Sonra siz Rəbbin qulu Musanın İordan çayının
şərqində sizə mülk olaraq verdiyi torpağa qayıdıb
oraya sahib ola bilərsiniz».
16 Onlar da Yeşuaya cavab verib dedilər: «Bizə nə
buyursan, edəcəyik və hara göndərsən, gedəcəyik.
17 Hər işdə Musaya necə qulaq asırdıqsa, sənə də elə
qulaq asacağıq. Qoy Allahın Rəbb Musa ilə olduğu
kimi səninlə də olsun. 18 Sənin əmrlərinə qarşı
çıxan, buyurduğun hər sözə qulaq asmayan hər kəs
öldürüləcək. Yalnız sən möhkəm və cəsarətli ol».

# 2

### *Yerixoda İsrail casusları və fahişə Raxav*

1 * Nun oğlu Yeşua Şittimdən iki kişini casusluq
etməyə gizli göndərib dedi: «Gedin oranın torpağını

---

* **1:12** Say. 32:28-32; Qanun. 3:18-20; Yeşua 22:1-6 * **2:1** İbr. 11:31; Yaq. 2:25

və Yerixonu gözdən keçirin». Onlar getdilər və
Raxav adlı bir fahişənin evinə girib orada qaldılar.
2 Yerixo padşahına «budur, bu gecə torpağımızı
gözdən keçirmək üçün İsrail övladlarından buraya
adamlar gəldi» deyə bildirildi. 3 Yerixo padşahı
Raxava xəbər göndərib dedi: «Sənin yanına
gəlib evinə girən adamları çıxart, çünki onlar
torpağımızın hər tərəfini gözdən keçirməyə
gəliblər». 4 Raxav isə o iki kişini gizlətmişdi. O
dedi: «Doğrusu, yanıma adamlar gəlmişdi, amma
haradan olduqlarını bilmirdim. 5 Qaranlıq
düşəndə, darvaza bağlananda o adamlar çıxdılar.
Bilmirəm hara getdilər. Tez dallarınca qaçın ki,
onları tuta biləsiniz». 6 Lakin qadın onları dama
çıxarıb damda sərdiyi kətan liflərin arasında
gizlətmişdi. 7 Padşahın göndərdiyi adamlar
casusları təqib etmək üçün İordan çayının keçidinə
qədər yol boyu qaçdılar. Təqibçilər bayıra çıxan
kimi darvazalar bağlandı.

8 Casuslar yatmazdan əvvəl qadın dama – on-
ların yanına çıxdı. 9 O bu adamlara dedi: «Mən
bilirəm ki, Rəbb bu torpağı sizə verib. Siz bizi
dəhşətə saldınız və bu torpağın bütün sakinləri
sizin qarşınızda əsir. 10 * * Çünki Misirdən çıxdığınız
zaman Rəbb Qırmızı dənizin sularını qarşınızda
necə qurutduğunu və İordan çayının o tayında məhv
etdiyiniz iki Emor padşahı Sixonla Oqa nə et-
diyinizi eşitmişik. 11 Biz bunları eşidəndə ürəyimiz
qorxuya düşdü və vahimənizdən heç kimin taqəti
qalmadı; çünki Allahınız Rəbb yuxarıda göyün və

* **2:10** Çıx. 14:21 * **2:10** Say. 21:21-35

aşağıda yerin Allahıdır. 12 İndi rica edirəm, Rəbbə
and için ki, sizə xeyirxahlıq etdiyim üçün siz də
mənə və atamın külfətinə xeyirxahlıq edəcəksiniz.
Mənə etibarlı bir nişanə verin ki, 13 atamı, anamı,
qardaşlarımı, bacılarımı, onların yanında olan hər
kəsi sağ qoyacaqsınız və canımızı ölümdən qur-
taracaqsınız». 14 Adamlar isə ona dedilər: «Əgər
bu işimizin üstünü açmasanız, canımızı belə, sizə
fəda edərik. Rəbb bu torpağı bizə verən vaxt sənə
xeyirxahlıq və sədaqət göstərərik».

15 O vaxt qadın onları kəndirlə pəncərədən aşağı
endirdi, çünki onun evi şəhərin qala divarında
idi və o, divarın içində yaşayırdı. 16 Qadın onlara
dedi: «Dağa gedin ki, təqibçilər sizə çatmasınlar,
onlar qayıdana qədər üç gün orada gizlənin, sonra
yolunuza davam edərsiniz». 17 Bu adamlar da
ona dedilər: «Sənin bizə içdirdiyin bu anddan bu
yolla günahsız olacağıq. 18 Bu torpağa gəldiyimiz
vaxt bizi düşürdüyün pəncərəyə bu al rəngli ipi
bağlayarsan. Atanı, ananı, qardaşlarını və atanın
bütün qohumlarını yanına – öz evinə toplayarsan.
19 Əgər sənin evinin qapısından kim bayıra çıxarsa,
qanı öz başına dönəcək və biz buna günahkar
olmayacağıq. Əgər səninlə birgə evində olan
bir kimsəyə toxunularsa, qoy onun qanı bizim
başımıza dönsün. 20 Ancaq bu işimizin üstünü
açmaq istəsən, onda sənin bizə içdirdiyin anddan
təqsirimiz olmaz». 21 Raxav dedi: «Necə deyirsiniz,
elə də olsun». Sonra onları yola saldı və onlar
getdilər. Raxav al rəngli ipi pəncərəyə bağladı.

22 Bu iki adam getdi. Dağa çatıb təqibçilər
qayıdana qədər üç gün orada qaldılar. Təqibçilər

bütün yol boyu onları axtardılar, ancaq tap-
madılar. 23 O iki kişi isə geri dönüb dağdan endi,
çayı keçərək Nun oğlu Yeşuanın yanına gəldi və
başlarına gələn hər şeyi ona nəql etdi. 24 Onlar
Yeşuaya dedilər: «Həqiqətən, Rəbb bütün o torpağı
bizə təslim edib, o torpağın bütün sakinləri də
qarşımızda qorxu içində əsir».

# 3

### *İsraillilərin İordan çayını keçməsi*

1 Yeşua səhər erkən qalxdı. Onunla birgə bütün
İsrail övladları Şittimdən irəliləyərək İordan çayına
qədər gəldilər. Onlar çayı keçməzdən əvvəl orada
qaldılar. 2 Üçüncü günün sonunda məmurlar
ordugahı gəzdilər. 3 Xalqa əmr edib dedilər:
«Allahınız Rəbbin Əhd sandığını Levililərdən olan
kahinlərin daşıdığını görəndə siz də yerinizdən
irəliləyərək onun ardınca gedin. 4 Ancaq sizinlə
onun arasında iki min qulaca qədər məsafə
olmalıdır. Ona yaxınlaşmayın ki, hansı yolla
gedəcəyinizi biləsiniz, çünki siz əvvəllər heç vaxt
bu yoldan keçməmisiniz». 5 Yeşua xalqa dedi:
«Özünüzü təqdis edin, çünki sabah Rəbb aranızda
möcüzələr göstərəcək». 6 Kahinlərə isə Yeşua belə
dedi: «Əhd sandığını götürün və xalqın önündə
gedin». Onlar da Əhd sandığını götürüb xalqın
önündə getdilər.

7 Rəbb Yeşuaya dedi: «Bu gün Mən səni bütün
İsraillilərin gözündə ucaltmağa başlayacağam ki, on-
lar Musa ilə olduğum kimi səninlə də olduğumu
bilsinlər.

8 Sən isə Əhd sandığını daşıyan kahinlərə əmr
edib deyəcəksən: “Siz İordan çayının kənarına
çatanda İordan çayına girib dayanın”».

9 Yeşua İsrail övladlarına dedi: «Buraya yaxınlaşın
və Allahınız Rəbbin sözlərini eşidin». 10 Yeşua
dedi: «Var olan Allahın aranızda olmasını
buradan biləcəksiniz ki, O sizin önünüzdən
hökmən Kənanlıları, Xetliləri, Xivliləri, Perizliləri,
Qirqaşlıları, Emorluları və Yevusluları qovacaq.
11 Budur, bütün yer üzünün Sahibinin Əhd sandığı
sizin önünüzdən keçib İordan çayına girəcək. 12 İndi
isə özünüzə hər qəbilədən bir adam olmaqla İsrail
qəbilələrindən on iki adam götürün. 13 Bütün yer
üzünün Sahibi Rəbbin sandığını daşıyan kahinlərin
ayaqları İordan çayının sularına dəyən kimi çayın
suları kəsiləcək, yuxarıdan axan sular yığın halında
dayanacaq».

14 Xalq çadırlarından çıxıb İordan çayını keçmək
üçün irəliləyirdi və Əhd sandığını daşıyan kahinlər
xalqın önündə gedirdilər. 15 Biçin ərzində İordan
çayının suları daşıb sahilləri basırdı. Sandığı
daşıyan kahinlər İordana girəndə və onların
ayaqları çayın sularına dəyəndə 16 yuxarıdan
axan sular çox uzaqda Sartan yanında olan Adam
şəhərində yığın halında dayanıb qalxdı. Arava
dənizinə, yəni Duz dənizinə axan sular tamamilə
kəsildi. Xalq çayı Yerixonun qarşısından keçdi.
17 Rəbbin Əhd sandığını daşıyan kahinlər isə İordan
çayının ortasında quru yerdə möhkəm durmuşdular.
Bütün İsraillilər İordan çayını tamamilə keçənə qədər
quru yerdə gedirdilər.

# 4

## *İordan çayının dibindən on iki daşın götürülməsi*

1 Bütün millət tamamilə İordan çayını keçəndən
sonra Rəbb Yeşuaya dedi: 2 «Hər qəbilədən bir adam
olmaqla özünüzə xalqdan on iki adam götürün.
3 Onlara əmr et ki, buradan, İordan çayının ortasından, kahinlərin ayaqlarının möhkəm durduğu yerdən on iki daş götürsünlər. Bu daşları aparıb bu gecə qaldığınız yerdə qoyun».

4 Yeşua hər qəbilədən bir adam olmaqla İsrail övladlarının arasından seçdiyi on iki adamı
çağırdı. 5 Yeşua onlara dedi: «Allahınız Rəbbin sandığı önündən İordan çayının ortasına keçib İsrail qəbilələrinin sayına görə hərəniz çiyninizə
bir daş götürün. 6 Qoy bu sizin aranızda bir əlamət olsun. Sizdən sonra övladlarınız “Bu daşlar nədir?”
deyərək soruşanda 7 onlara belə deyərsiniz: “İordan çayının suları Rəbbin Əhd sandığının önündə kəsildi. Əhd sandığını İordan çayından keçirəndə İordan çayının suları kəsilmişdi”. Bu daşlar İsrail övladlarına əbədi bir xatirə olacaq».

8 İsraillilər Yeşuanın əmr etdiyi kimi etdilər və Rəbbin Yeşuaya dediyi kimi İsrail qəbilələrinin sayına görə İordan çayının ortasından on iki daş götürdülər, özləri ilə gecə qalacaqları yerə aparıb
onları orada yerə qoydular. 9 Sonra Yeşua İordan
çayının ortasında Əhd sandığını daşıyan kahinlərin ayaqlarının möhkəm durduğu yerə on iki daş qoydu. Onlar bu günə qədər oradadır.

10 Musanın Yeşuaya dediyi kimi xalqa demək
üçün Rəbbin Yeşuaya əmr etdiyi şeylər qurtarana
qədər sandığı daşıyan kahinlər İordan çayının
ortasında dayandılar, xalq isə tələsərək çayı
keçdi. 11 Xalq çayı keçib qurtarandan sonra
Rəbbin sandığı və kahinlər xalqın önünə keçdilər.
12 Ruvenlilər, Qadlılar və Menaşşe qəbiləsinin
yarısı Musanın onlara dediyi kimi silahlanaraq
İsrail övladlarının önündə çayı keçdi. 13 Döyüş üçün
silahlanmış qırx minə yaxın adam Rəbbin önündə
Yerixo düzənliklərinə keçdi.

14 O gün Rəbb Yeşuanı bütün İsrail xalqının
gözündə ucaltdı. Onlar da Musadan çəkindiyi kimi
Yeşuadan da onun ömrü boyu çəkindilər.

15 Rəbb Yeşuaya söyləyib dedi: 16 «Şəhadət
sandığını daşıyan kahinlərə əmr et ki, İordan
çayından çıxsınlar». 17 Yeşua da kahinlərə «İordan
çayından çıxın!» deyə əmr etdi. 18 Rəbbin
Əhd sandığını daşıyan kahinlər İordan çayının
ortasından çıxanda kahinlərin ayaqları quru
torpağa dəyən kimi İordan çayının suları öz yerinə
qayıtdı. Yenə əvvəlki kimi bütün sular daşıb
sahilləri basdı.

19 Birinci ayın onuncu günündə xalq İordan
çayından çıxıb Yerixonun şərq sərhədində olan
Qilqalda ordugah qurdu. 20 Yeşua İordan çayından
götürülmüş həmin on iki daşı Qilqalda qoydu.
21 O, İsrail övladlarına dedi: «Sonra övladlarınız ata-
larından “Bu daşlar nəyə görədir?” deyib soruşanda
22 övladlarınıza bəyan edin: “İsraillilər İordan çayını
quru yer üzərində keçib”. 23 Çünki Allahınız Rəbb

biz keçənə qədər qarşımızda qurutduğu Qırmızı dəniz kimi İordan çayının sularını da siz keçənə qədər qarşımızda qurutdu ki,
24 yer üzünün bütün xalqları Rəbbin əlinin qüdrətli olduğunu bilsin və siz də bütün ömrünüz boyu Rəbdən qorxasınız».

# 5

## *İsraillilərin Qilqalda sünnət olunması*

1 İordan çayının qərb tərəfində olan bütün Emorluların padşahları və dəniz kənarında yaşayan bütün Kənan padşahları biz İordan çayını keçərkən, Rəbbin İsrail övladlarının qarşısında suları necə qurutduğunu eşidərkən ürəkləri qorxuya düşdü. İsrail övladlarının vahiməsindən onlarda taqət qalmadı.
2 O zaman Rəbb Yeşuaya dedi: «Özün üçün çaxmaq daşından bıçaqlar düzəlt və İsrail övladlarını ikinci dəfə sən sünnət et».
3 Yeşua özü üçün çaxmaq daşından bıçaqlar düzəldib Giveat-Haaralotda İsrail övladlarını sünnət etdi.
4 Yeşuanın sünnət etməsinin səbəbi budur: bütün döyüş qabiliyyəti olan kişilər Misirdən çıxandan sonra səhrada – yolda öldülər.
5 Oradan çıxan xalqın hamısı sünnətli idi, ancaq Misirdən çıxandan sonra səhrada – yolda doğulanların heç biri sünnət olunmamışdı.
6 * Misirdən çıxan döyüş qabiliyyəti olan adamların hamısı ölüb qurtarana qədər İsrail övladları qırx il səhrada dolaşdı, çünki onlar Rəbbin sözünə qulaq asmamışdı. Rəbb bizə vermək üçün atalarımıza and içdiyi süd və bal axan torpağı itaətsizlərə göstərməmək üçün də and içdi.
7 Bunun əvəzinə

* **5:6** Say. 14:28-35

Rəbb onların övladlarını yetişdirdi və Yeşua onları sünnət etdi. Çünki onlar sünnətsiz idilər və yolda onları heç kim sünnət etməmişdi.

8 Bütün İsraillilərin sünnət olunması
qurtardıqdan sonra onlar sağalana qədər
ordugahda öz yerlərində qaldılar. 9 Rəbb Yeşuaya
dedi: «Misir rüsvayçılığını bu gün üzərinizdən
atdım». Ona görə də bu günə qədər o yerin adına
Qilqal * deyilir.

10 * İsrail övladları Qilqalda ordugah qurdular.
Ayın on dördü axşam vaxtı Yerixo düzənliklərində
Pasxa bayramı keçirdilər. 11 Pasxanın ertəsi
günü – həmin o gün bu torpağın bəhrəsindən
olan mayasız çörək və qovurğa yedilər. 12 *
Onlar o torpağın bəhrəsindən yedikləri günün
səhəri mannanın tökülməsi kəsildi. Artıq İsrail
övladlarının mannası yox idi və o il Kənan
torpağının məhsulları ilə dolandılar.

### *Yeşua və qılınclı adam*

13 Yeşua Yerixo yaxınlığında olanda başını
qaldırıb baxdı və əlində sıyrılmış qılınc olan bir
şəxsi qarşısında gördü. Yeşua onun yanına gəlib
«Sən bizim tərəfdənsən, yoxsa düşmənlərimiz
tərəfdən?» deyə soruşdu. 14 O dedi: «Xeyr, mən
Rəbbin ordusunun başçısıyam, indi gəlmişəm».
Yeşua üzüstə yerə yıxıldı və ona səcdə edib dedi:
«Ağamın quluna nə sözü var?» 15 * Rəbbin
ordusunun başçısı Yeşuaya dedi: «Çarığını

---

* **5:9** Qilqal – ibrani dilində atmaq. * **5:10** Çıx. 12:1-13 * **5:12** Çıx. 16:35 * **5:15** Çıx. 3:5

ayağından çıxart, çünki üstündə durduğun yer
müqəddəsdir». Yeşua belə də etdi.

# 6

*Yerixonun süqutu*

1 İsrail övladlarının qorxusundan Yerixonu bərk-
bərk bağlamışdılar. Oraya girib-çıxan yox idi. 2 Rəbb
Yeşuaya dedi: «Bax Yerixonu, onların padşahını,
igid adamlarını sənə təslim edirəm. 3 Siz – bütün
döyüşçülər şəhərin ətrafına bir dəfə dolanın; altı
gün belə edin. 4 Sandığın qarşısında yeddi kahin
qoç buynuzundan olan yeddi şeypur daşısın. Yed-
dinci gün şəhəri yeddi dəfə dolanın və kahinlər
şeypurları çalsınlar. 5 Onlar qoç buynuzundan olan
şeypuru uzun-uzadı çaldıqları və siz şeypurun səsini
eşitdiyiniz vaxt bütün xalq gur səslə bağırsın. Onda
şəhərin qala divarları yerə çökəcək və xalqın hər
biri dayandığı yerdən şəhərə qalxsın». 6 Nun oğlu
Yeşua kahinləri çağırıb onlara dedi: «Əhd sandığını
götürün, Rəbbin sandığı qarşısında yeddi kahin
qoç buynuzundan olan yeddi şeypur daşısın».
7 Xalqa isə dedi: «Gedin şəhəri dolanın, silahlı
adamlar isə Rəbbin sandığı önündə getsinlər».

8 Yeşuanın xalqa dediyi kimi Rəbbin önündə qoç
buynuzundan olan yeddi şeypuru daşıyan yeddi
kahin keçib şeypurları çaldı. Rəbbin Əhd sandığı
da onların ardınca aparıldı. 9 Silahlı adamlar
şeypurları çalan kahinlərin qarşısında gedirdilər,
kahinlər şeypurları çala-çala gedərkən arxada olan
dəstə sandığın ardınca gedirdi. 10 Yeşua xalqa əmr
edib dedi: «Sizə “çığırın” deyəcəyim günə qədər
çığırmayın, səsinizi eşitdirməyin və ağzınızdan bir

söz çıxartmayın, ancaq mən deyən vaxt çığırın».
11 Xalq Rəbbin sandığını bir dəfə şəhərin ətrafına
dolandırdı. Sonra ordugaha gəldilər və orada
gecələdilər.

12 Yeşua səhər erkən qalxdı. Kahinlər də Rəbbin
sandığını götürdülər. 13 Qoç buynuzundan olan
yeddi şeypuru daşıyan yeddi kahin Rəbbin sandığı
önündə gedirdi və şeypurları çalırdı. Silahlı adamlar
onların qarşısında gedirdi. Kahinlər şeypurları çala-
çala gedir, arxa dəstə Rəbbin sandığının ardınca
gedirdi. 14 Onlar ikinci gün də şəhəri bir dəfə
dolandılar və ordugaha qayıtdılar; altı gün belə
etdilər.

15 Yeddinci gün tezdən dan yeri söküləndə qalxıb
şəhəri yeddi dəfə bu qayda ilə dolandılar. An-
caq yeddinci gün şəhəri yeddi dəfə dolandılar.
16 Yeddinci dəfə dolanan zaman kahinlər şeypurları
çalanda Yeşua xalqa dedi: «Çığırın, çünki Rəbb şəhəri
sizə verdi. 17 Şəhər məhv edilməyə həsr olun-
muşdur * və onda olan hər şey Rəbbə təqdim ol-
unmalıdır. Yalnız fahişə Raxav və onunla birgə
evdə olanların hamısı sağ qalmalıdır, çünki o
göndərdiyimiz elçiləri gizlətmişdi. 18 Lakin siz
məhv edilməyə həsr olunmuş şeylərdən çəkinin ki,
heç nə götürməyəsiniz. Əgər bir şey götürsəniz,
onda siz də məhv edilməyə həsr olunacaqsınız və
bununla da İsrail ordugahını məhv edilməyə həsr
etməklə bəlaya salarsınız. 19 Ancaq bütün qızıl

* **6:17** Məhv edilməyə həsr olunmuş – ibrani mətnində *xerem* sözü olub Allaha təqdim olunan, məhv olunmaq üçün təqdis edilən və götürülməsi qadağan olunan şeylərə deyilir.

və gümüş, tunc və dəmir əşyalar Rəbbə məxsus
olduğuna görə Rəbbin xəzinəsinə daxil olacaq».
20 * Xalq çığırdı və kahinlər şeypur çaldılar. Xalq
şeypur səsini eşidəndə ucadan çığırdı. Onda qala
divarları yerə çökdü və xalqın hər biri dayandığı
yerdən irəliləyərək şəhəri aldı. 21 Onlar kişini,
qadını, cavanı, qocanı, mal-qaranı, qoyun-
quzunu, eşşəyi və şəhərdə olanların hamısını
qılıncdan keçirib tamamilə məhv etdilər.

### *Yeşuanın Raxavı və yanındakıları sağ buraxması*

22 Yeşua ölkəni gözdən keçirən o iki nəfər ca-
susa tapşırmışdı: «Fahişə qadının evinə girin, ona
and içdiyiniz kimi qadını və onun yanındakıların
hamısını evdən çıxarın». 23 O zaman həmin ca-
sus cavanlar qadının evinə gəldi. Raxavı, atasını,
anasını, qardaşlarını, onun yanında olan hər kəsi,
bütün qohumlarını evdən çıxartdılar və onları İsrail
ordugahından kənar yerdə qoydular. 24 Şəhərə və
orada olan hər şeyə od vurub yandırdılar. Yalnız
qızıl-gümüşü, mis və dəmir əşyaları Rəbbin evinin
xəzinəsinə qoydular. 25 * Ancaq Yeşua fahişə Rax-
avı, onun atasının külfətini və onun yanında olan
hər kəsi sağ buraxdı. Qadın bu günə qədər də
İsraillilərin arasında yaşayır, çünki Yerixonu gözdən
keçirmək üçün Yeşuanın göndərdiyi elçiləri yanında
gizlətmişdi.

### *Yeşuanın Yerixonu lənətləməsi*

26 * Yeşua o vaxt xalqa and verib xəbərdarlıq
etdi: «Bu şəhəri – Yerixonu kim bərpa etsə, qoy

---

* **6:20** İbr. 11:30 * **6:25** İbr. 11:31 * **6:26** 1Pad. 16:34

Rəbbin önündə lənətə gəlsin. Bunu edən həmin
şəxs onun bünövrəsini ilk oğlunun həyatı bahasına
qoyacaq və kiçik oğlunun həyatı bahasına isə onun
qapılarını yerinə vuracaq». 27 Rəbb Yeşua ilə idi və
onun şöhrəti bütün ölkəyə yayıldı.

# 7

## *Akanın günahı və cəzası*

1 Amma İsrail övladları məhv edilməyə həsr ol-
unmuş şeylərə münasibətdə xəyanət etdilər. Çünki
Yəhuda qəbiləsindən Zerah oğlu Zavdi oğlu Karmi
oğlu Akan məhv edilməyə həsr olunmuş şeylərdən
götürdü. Ona görə də Rəbbin qəzəbi İsrail övladlarına
qarşı alovlandı.

2 Yeşua Yerixodan Bet-Elin şərqində, Bet-Avenin
yanında olan Ay şəhərinə adamlar göndərib onlara
dedi: «Gedin, ölkəni gözdən keçirin». Adamlar çıxıb
Ay şəhərini gözdən keçirdilər. 3 Onlar Yeşuanın
yanına qayıdıb dedilər: «Bütün xalq getməsin, an-
caq iki ya üç min nəfərə qədər adam gedib Ay
şəhərini məhv etsin. Bütün xalqı oraya göndərib
yorma, çünki onlar azdır». 4 Beləliklə, oraya
xalqın üç min nəfərə qədəri getdi, lakin onlar
Ay sakinlərinin qarşısından qaçdılar. 5 Aylılar on-
lardan otuz altı nəfəri öldürüb, İsraililləri şəhərin
darvazasının qabağından daş çıxarılan yerə qədər
qovdular və onları enişlikdə qırdılar. Bundan sonra
xalqın ürəyi qorxudan dəhşətə gəldi.

6 Yeşua paltarını cırdı, özü və İsrailin ağsaqqalları
Rəbbin sandığı önündə axşama kimi yerə yıxılıb
başlarına torpaq tökdülər. 7 Yeşua dedi: «Ah, ey
Xudavənd Rəbb, bizi Emorlulara təslim etmək,

bizi məhv etmək üçünmü bu xalqı İordan çayından
keçirtdin? Kaş ki İordan çayının o tayında qalıb
yaşayaydıq. 8 Ah, ey Xudavənd, İsraillilər düşmənin
qarşısından qaçandan sonra mən nə deyə bilərəm?
9 Bundan sonra Kənanlılar və bu ölkədə yaşayan
bütün xalqlar eşidəcək, bizi mühasirəyə alıb adımızı
yer üzündən siləcəklər. Bəs Sən Öz böyük adın üçün
nə edəcəksən?»

10 Rəbb Yeşuaya dedi: «Qalx, nə üçün belə
üzüstə yıxılmısan?» 11 İsraillilər günah etdilər və
onlara əmr etdiyim əhdimi pozdular. Məhv
edilməyə həsr olunmuş şeylərdən götürdülər,
onlardan oğurladılar, gizlədərək öz əşyaları arasına
qoydular. 12 Buna görə də İsrail övladları düşmən
qabağında dura bilmir, düşmənin qarşısından
qaçdılar. Çünki onlar özləri də məhv edilməyə
həsr olunmuşlar. Əgər məhv edilməyə həsr
olunmuş şeyləri aranızdan yox etməsəniz, bir
daha sizinlə olmayacağam. 13 Qalx, xalqı təqdis
et və de: «Sabahkı gün üçün özünüzü təqdis edin,
çünki İsrailin Allahı Rəbb belə deyir: “Ey İsraillilər,
aranızda məhv edilməyə həsr olunmuş şey var.
Onu aranızdan götürməsəniz, düşmənləriniz
qarşısında dura bilməyəcəksiniz. 14 Sabah hamınız
qəbilələrinizə görə Rəbbin hüzuruna çıxacaqsınız və
Onun göstərdiyi qəbilə nəsillərə görə irəli çıxacaq.
Rəbbin göstərdiyi nəsil ailələrə görə irəli çıxacaq.
Rəbbin göstərdiyi ailə kişilərə görə irəli çıxacaq.
15 Məhv edilməyə həsr olunmuş şeylərə xəyanət
edən adam və ona aid olanların hamısı odda
yandırılacaq, çünki o, Rəbbin əhdini pozmuşdur və
İsraildə rüsvayçılıq etmişdir”».

16 Yeşua səhər tezdən qalxdı və İsraillilərin
qəbilələrinə görə Rəbbin hüzuruna çıxmasını əmr
etdi və Yəhuda qəbiləsi göstərildi. 17 Yəhuda
qəbiləsini irəli çıxardı və Zerah nəsli göstərildi.
Zerah nəslini ailələrinə görə irəli çıxardı və Zavdi
ailəsi göstərildi. 18 Zavdi ailəsini kişilərinə görə
irəli çıxardı və Yəhuda qəbiləsindən Zerah oğlu
Zavdi oğlu Karmi oğlu Akan göstərildi. 19 Yeşua
Akana dedi: «Oğlum, buyur, İsrailin Allahı Rəbbi
izzətləndir və Onun önündə etiraf et. Nə etmisən?
İndi mənə bildir, məndən gizlətmə». 20 Akan
Yeşuaya cavab verdi: «Həqiqətən, mən İsrailin
Allahı Rəbbə qarşı günah edərək belə elədim:
21 talan malından Babil malı olan gözəl bir paltar,
iki yüz şekel gümüş və ağırlığı əlli şekel olan bir
qızıl külçə görəndə onlara tamah salıb götürdüm.
Budur, ən altda gümüş olmaqla hamısını çadırımın
ortasında torpağa basdırmışam».

22 Yeşua adamlar göndərdi və onlar çadıra
qaçdılar. Şeylər ən altda gümüş olmaqla onun
çadırında gizlədilmişdi. 23 Onları çadırın içindən
götürüb Yeşuanın və bütün İsrail övladlarının
yanına gətirdilər və Rəbbin önündə yerə qoydular.
24 Yeşua, onunla birgə bütün İsraillilər, Zerah
oğlu Akanı, gümüşü, paltarı, qızıl külçəni, onun
övladlarını, qızlarını, mal-qarasını, eşşəklərini,
qoyun-quzularını, çadırını və bütün malını götürüb
Akor dərəsinə çıxartdılar. 25 Yeşua dedi: «Nə üçün
bizi bəlaya saldın? Rəbb bu gün səni bəlaya
salacaq». Bütün İsraillilər onu və onunla olanları
da daşqalaq edib sonra odda yandırdılar. 26 Onların
üstünə böyük daş qalağı yığıldı və o bu günə qədər

də durur. Bundan sonra Rəbbin qəzəb alovu söndü. Bunun üçün bu günə qədər o yerin adına Akor * dərəsi deyilir.

# 8

## *İsraillilərin Ay şəhərini ələ keçirməsi*

1 Rəbb Yeşuaya dedi: «Qorxma və dəhşətə
gəlmə, bütün döyüşçülərini öz yanına yığ və
qalxıb Ay şəhərinə hücum et. Mən Ay şəhərinin
padşahını, xalqını, şəhərini və torpağını sənə təslim
edirəm. 2 Yerixonun və oranın padşahının başına
gətirdiyini Ay torpağının və onun padşahının
başına gətir. Mallarını və heyvanlarını isə özünüz
üçün qarət edin. Şəhərə qarşı arxa tərəfdən pusqu
qurun».
3 Yeşua ilə bütün döyüşçülər Ay şəhərinə getmək
üçün qalxdılar. Yeşua otuz min igid adam seçib
onları gecə ikən oraya göndərəndə belə əmr
etdi: 4 «Qulaq asın, şəhərə qarşı arxa tərəfdən
pusquda durun, şəhərdən çox uzağa getməyin,
hamınız hazır durun. 5 Mən və yanımda olan
bütün xalq şəhərə yaxınlaşacağıq. Əvvəlki kimi Ay
şəhərinin sakinləri bizə qarşı çıxanda biz də onların
qarşısından qaçacağıq. 6 Biz onları şəhərdən ayırana
qədər arxamızca aparacağıq, çünki "əvvəlki kimi
qarşımızdan qaçırlar" deyəcəklər. Biz də onların
qarşısından qaçacağıq. 7 O vaxt siz pusqudan
qalxıb şəhəri alın, çünki Allahınız Rəbb oranı sizə
təslim edəcək. 8 Şəhəri ələ keçirdiyiniz zaman şəhərə
od vurun. Bunu Rəbbin sözünə görə edin. Sizə belə
əmr edirəm». 9 Beləliklə, Yeşua onları göndərdi.

* **7:26** Akor – ibrani dilində əziyyət.

Onlar pusquda durdular və Bet-El ilə Ay şəhəri
arasında, Ay şəhərinin qərb tərəfində gözlədilər.
Yeşua gecəni camaatın arasında keçirdi.

10 Yeşua səhər tezdən durdu, xalqı gözdən keçirdi,
özü və xalqın ağsaqqalları xalqın qarşısında Ay
şəhərinin üzərinə getdilər. 11 Onunla birgə olan
bütün döyüşçülər getdilər və yaxınlaşıb şəhərin
qarşısına gəldilər, Ay şəhərinin şimal tərəfində top-
landılar. Onlarla Ay şəhərinin arasında bir dərə var
idi. 12 Yeşua beş minə qədər adam götürdü, onları
Bet-El ilə Ay şəhəri arasında, şəhərin qərb tərəfində
pusquya qoydu. 13 Şəhərin şimalında olan bütün
ordu və şəhərin qərbində pusquda duranlar döyüş
üçün yerləşdirildi. Yeşua o gecə dərənin ortasına
getdi.

14 Ay şəhərinin padşahı bunu gördükdə səhər
tezdən şəhərin adamları ilə birgə tələsik qalxdı
və bütün camaat düz vaxtında İsraillilərə qarşı Ar-
ava vadisinin önündə döyüşə çıxdı. Lakin padşah
bilmirdi ki, şəhər arxasında ona qarşı pusqu qu-
rulub. 15 Yeşua ilə bütün İsraillilər özlərini on-
ların qarşısında məğlub olmuş kimi göstərərək çölə
tərəf qaçdılar. 16 Onları təqib etmək üçün şəhərdə
olan bütün camaat çağırıldı. Yeşuanı təqib edərək
şəhərdən çıxdılar. 17 Ay və Bet-El şəhərlərində bir
nəfər də qalmadı ki, İsraillilərin ardınca getməsin.
Onlar şəhəri açıq qoyaraq İsrailliləri təqib etdilər.

18 Rəbb Yeşuaya dedi: «Əlindəki nizəni Ay şəhərinə
tərəf uzat, çünki oranı sənə təslim edəcəyəm». Yeşua
əlindəki nizəni Ay şəhərinə tərəf uzatdı. 19 Yeşua
əlini şəhərə tərəf uzadarkən pusquda duranlar
cəld yerlərindən qalxdılar və şəhərə girib oranı

aldılar. O anda bütün şəhərə od vurdular. 20 Ay
şəhərinin əhalisi arxaya dönüb baxanda gördü
ki, şəhərdən göyə tüstü qalxır və onların o yan-
bu yana qaçmağa da taqəti yox idi. Çölə tərəf
qaçan İsraillilər də onları təqib edənlərə tərəf döndü.
21 Yeşua ilə pusquda olan bütün İsraillilər şəhəri
alındığını və şəhərdən tüstü qalxdığını görəndə
dönüb Ay şəhərinin adamlarını qırdılar. 22 O biri
İsraillilər də şəhərdən onlara tərəf çıxdılar. Onda on-
lar iki tərəfdən gələn İsraillilərin arasında qaldılar.
İsraillilər onlardan heç kimi sağ yaxud qaçmağa
qoymadan qırdılar. 23 Ay şəhərinin padşahını isə
diri tutub Yeşuanın yanına gətirdilər.

24 İsraillilər Ay şəhərinin əhalisinin hamısını
öldürüb qurtarana qədər tarlada və onları təqib
etdikləri çöldə qılıncdan keçirtdilər. Sonra bütün
İsraillilər Ay şəhərinə qayıdıb orada qalanları
da qılıncdan keçirtdilər. 25 O gün qırılan kişi və
qadınlardan hamısı – bütünlüklə Ay şəhərinin
əhalisi on iki min nəfər idi. 26 Bütün Ay şəhərinin
əhalisini tamamilə qırıb qurtarana qədər Yeşua
nizə uzadan əlini geri çəkmədi. 27 Ancaq Rəbbin
Yeşuaya buyurduğu sözə görə İsraillilər o şəhərin
heyvanlarını və əmlakını talan edib özlərinə
götürdülər. 28 Yeşua Ay şəhərini yandırdı. Oranı
əbədi qalan daş qalağına, yəni elə bir viranəyə
çevirdi ki, bu günə qədər qalmaqdadır. 29 O,
Ay şəhərinin padşahını ağacdan asaraq axşama
qədər saxladı. Gün batanda isə Yeşua əmr verdi
və onun cəsədini ağacdan düşürtdülər, onu şəhər
darvazasının girəcəyinə atdılar. Üstünə bu günə

qədər qalan böyük bir daş qalağı yığdılar.

*Eval dağında qurban mərasimi*

30 * O zaman Yeşua Eval dağında İsrailin Allahı
Rəbbə bir qurbangah qurdu. 31 * O, Rəbbin qulu
Musanın İsrail övladlarına əmr etdiyi və Musanın
Qanun kitabında yazıldığı kimi üstünə heç kimin
dəmir vurmadığı, yonulmamış daşlardan bir qur-
bangah düzəltdi. Onun üstündə Rəbbə yandırma
qurbanları və ünsiyyət qurbanları təqdim etdilər.
32 Yeşua orada Musanın İsrail övladları qarşısında
yazdığı Qanunun bir nüsxəsini daşlar üzərinə
yazdı. 33 * Bütün İsraillilər, ağsaqqallar, məmurlar,
hakimlər, qəriblər də daxil olmaqla Rəbbin Əhd
sandığının iki tərəfində sandığı daşıyan Levili
kahinlərin qarşısında dayandılar. Xalqın yarısı
Gerizim dağının, o biri yarısı isə Eval dağının
qarşısında durdu. Çünki Rəbbin qulu Musa İsrail
xalqına xeyir-dua vermək üçün əvvəllər bu cür
dayanmağı buyurmuşdu. 34 Ondan sonra Yeşua
Qanunun bütün sözlərini – xeyir-dua və lənəti,
yəni Qanun kitabında yazılanların hamısını oxudu.
35 Bütün İsrail camaatının, qadınların, uşaqların
və aralarında olan qəriblərin qarşısında Musanın
bütün buyurduqlarından Yeşuanın oxumadığı bir
söz belə, qalmadı.

# 9

*Kənan padşahlarının İsraillilərlə vuruşmaq üçün yığılması*

* **8:30** Qanun. 27:2-8 * **8:31** Çıx. 20:25 * **8:33** Qanun. 11:29; 27:11-14

1 İordan çayının qərb tərəfində dağlıqda, ya-
maclı-düzənlikli bölgədə, Livana qədər uzanan
Böyük dənizin sahilində yaşayan Xetlilər, Emorlu-
lar, Kənanlılar, Perizlilər, Xivlilər və Yevusluların
padşahları bunu eşidən zaman 2 Yeşua və İsraillilərə
qarşı birlikdə döyüşmək üçün bir yerə toplandılar.

## *Giveon əhalisinin İsraillilərlə hiyləgərcəsinə sülh bağlaması*

3 Lakin Giveon əhalisi Yeşuanın Yerixonun
və Ay şəhərinin başına gətirdiklərini eşitdikdə
4 hiylə ilə hərəkət etdilər: gedib özlərini elçi
kimi göstərdilər və köhnəlmiş torbalar, köhnə,
yırtıq və bağlanmış şərab tuluqlarını eşşəklərinə
yüklədilər. 5 Ayaqlarında cırıq və yamaqlı çarıqları,
əyinlərində köhnə paltarları var idi. Ərzaqları,
bütün çörəkləri qurumuş və kiflənmişdi. 6 Onlar
Qilqalda olan ordugaha, Yeşuanın yanına getdilər,
ona və İsraillilərə dedilər: «Biz uzaq bir ölkədən
gəlmişik, indi bizimlə əhd kəsin». 7 * İsraillilər
Xivlilərə dedilər: «Bəlkə siz bizim aramızda
yaşayırsınız? Biz sizinlə necə əhd kəsək?» 8 Onlar
Yeşuaya dedilər: «Biz sənin qullarınıq». Yeşua
isə onlara dedi: «Siz kimsiniz və haradan
gəlirsiniz?» 9 Ona dedilər: «Sənin Allahın Rəbbin
şöhrətli adına görə biz qulların çox uzaq ölkədən
gəlmişik. Çünki Rəbbin xəbərini, Misirdə etdiyi
bütün şeyləri, 10 * İordan çayının o tərəfində olan
Emorluların iki padşahı – Xeşbon padşahı Sixonun
və Aştarotdakı Başan padşahı Oqun başına gətirdiyi
hər şeyi eşitmişik. 11 Ona görə ağsaqqallarımız və

* **9:7** Çıx. 23:32; 34:12; Qanun. 7:2 * **9:10** Say. 21:21-35

ölkəmizin bütün əhalisi bizə belə dedilər: “Yol
üçün əlinizə ərzaq götürüb onları qarşılamağa
gedin və deyin: ‹Biz sizin qullarınızıq, indi bizimlə
əhd kəsin›”. 12 Yanınıza gəlmək üçün çıxdığımız
gün bu çörəyimizi ərzaq kimi evlərimizdən isti-
isti götürmüşdük, indi isə quruyub və kiflənib.
13 Doldurduğumuz bu şərab tuluqları təzə idi, indi
isə yırtılıb. Yol çox uzun olduğu üçün paltarlarımız
və çarıqlarımız da köhnəlib».

14 İsraillilər onların ərzaqlarını götürdülər və on-
lara inandılar, ancaq Rəbdən məsləhət almadılar.
15 Yeşua onlarla sülh bağlayıb onları sağ buraxa-
cağına söz verdi və icma rəhbərləri də bunun üçün
and içdilər.

16 Onlarla əhd bağladıqdan üç gün sonra
eşitdilər ki, bu adamlar İsraillilərlə qonşuluqda
– öz aralarında yaşayanlardır. 17 İsraillilər çıxıb
üçüncü gün onların şəhərlərinə gəldilər. Onların
şəhərləri Giveon, Kefira, Beerot və Qiryat-Yearim
idi. 18 İsraillilər onları qırmadılar, çünki icma
rəhbərləri onlar üçün İsrailin Allahı Rəbbə and
içmişdilər. Bütün icma rəhbərlərin əleyhinə
danışdı. 19 Rəhbərlərin hamısı icmaya dedi: «Biz
onlar üçün İsrailin Allahı Rəbbə and içdik ki, onlara
toxunmayaq. 20 Ona görə də belə edək: onları
sağ buraxaq, yoxsa içdiyimiz anda görə üzərimizə
qəzəb gələr». 21 Rəhbərlər xalqa dedi: «Qoy onlar
sağ qalsın, amma bütün icma üçün odun kəsən
və su daşıyan olsunlar». Beləcə hər şey rəhbərlər
deyən kimi oldu.

22 Yeşua onları çağırıb belə dedi: «Aramızda
yaşadığınız halda “biz sizdən çox uzağıq” deyərək

bizi nə üçün aldatdınız? 23 İndi lənətlənmisiniz və
siz həmişəlik Allahımın evi üçün odun kəsən və su
daşıyan kölələr olmalısınız». 24 Onlar Yeşuaya cavab
verib dedilər: «Sənin Allahın Rəbbin bütün ölkəni
sizə vermək, ölkənin bütün əhalisini qarşınızda
həlak etmək üçün qulu Musaya necə əmr verdiyi
bu qullarına aşkar bildirilmişdi. Sizin ucbatınızdan
canımız üçün çox qorxduq və ona görə belə etdik.
25 Artıq sənin əlindəyik. Sənin gözündə nə xoşdursa
və nə doğrudursa, onu et». 26 Yeşua onlarla belə
rəftar etdi: onları İsrail övladlarının əlindən qur-
tarıb qoymadı ki, öldürülsünlər. 27 O gün Yeşua icma
üçün və Rəbbin seçəcəyi yerdəki öz qurbangahı
üçün onları odun kəsən və su daşıyan işinə təyin
etdi və bu günə qədər də belədir.

# 10

### *Giveon ətrafında döyüş*

1 Yerusəlim padşahı Adoni-Sedeq Yeşuanın Ay
şəhərini alıb tamamilə məhv etməsini, Yerixo
ilə padşahının, Ay şəhəri ilə padşahının başına
gətirdiyini və Giveon əhalisinin İsraillilərlə sülh
bağlayıb onların arasında olduqlarını eşitdi. 2 O
vaxt onun özü və xalqı çox qorxdu, çünki Giveon
şəhəri padşah şəhərlərindən biri kimi böyük
bir şəhər idi. Giveon Ay şəhərindən də böyük
idi və oranın adamları igid idi. 3 Bunun üçün
Yerusəlim padşahı Adoni-Sedeq Xevron padşahı
Hohama, Yarmut padşahı Pirama, Lakiş padşahı
Yafiaya, Eqlon padşahı Devirə xəbər göndərib
dedi: 4 «Yanıma gəlib Giveonluları qırmaqda
mənə kömək edin, çünki onlar Yeşua və İsrail

övladları ilə sülh bağlayıb». 5 Beş Emor padşahı
olan Yerusəlim padşahı, Xevron padşahı, Yarmut
padşahı, Lakiş padşahı, Eqlon padşahı bütün
orduları birləşdirərək gəlib Giveon qarşısında
ordugah quraraq ona qarşı vuruşdular.

6 Giveon adamları Qilqaldakı ordugaha, Yeşuaya
xəbər göndərib dedilər: «əlini qullarının üstündən
çəkmə, tez yanımıza gəl, bizi qurtar və bizə kömək
et. Çünki dağlıqda yaşayan bütün Emor padşahları
bizə qarşı birləşib». 7 Yeşua, onunla birgə bütün
döyüşçülər və bütün igid adamlar Qilqaldan
çıxdılar.

8 Rəbb Yeşuaya dedi: «Onlardan qorxma, çünki
onları sənə təslim etdim, onlardan heç kim sənin
qarşında dura bilməyəcək». 9 Yeşua bütün gecə
Qilqaldan yuxarı çıxıb qəflətən onların üstünə
gəldi. 10 Rəbb onları İsraillilərin qarşısında çaşbaş
saldı, İsraillilər onları Giveonda böyük tələfata
uğratdı və onları Bet-Xoron yoxuşunda təqib
edərək Azeqaya və Maqqedaya qədər qırdılar.
11 Emorlular İsraillilərin qarşısından qaçdıqları
zaman Bet-Xoron enişində ikən Azeqaya qədər
Rəbb onların üstünə göydən böyük daşlar yağdırdı
və onlar öldülər. Daş kimi dolu ilə ölənlər İsrail
övladlarının qılıncla öldürdüklərindən daha çox idi.

12 Rəbb Emorluları İsrail övladlarına təslim et-
diyi gün Yeşua Rəbbə yalvardı və İsraillilərin gözü
qarşısında dedi:

«Dayan, ey günəş, Giveon üzərində,

Ey ay, Ayyalon dərəsində».

13 * İsrail xalqı düşmənlərindən qisas alana qədər
günəş orada dayandı və ay yerində qaldı. Bu
hadisə Yaşar kitabında yazılmışdı. Günəş göyün
ortasında durdu və ləngiyib təxminən bütün günü
batmadı. 14 Rəbbin insan səsini eşitdiyi o gün kimi
bir gün nə ondan əvvəl, nə də ondan sonra oldu,
çünki Rəbb İsrail üçün vuruşdu.

15 Sonra Yeşua və onunla birlikdə bütün İsraillilər
Qilqaldakı ordugaha qayıtdı.

### *Emor padşahlarının öldürülməsi*

16 Bu beş padşah qaçıb Maqqedada olan
mağarada gizləndi. 17 «Maqqedadakı mağarada
gizlənən beş padşah tapıldı» deyə Yeşuaya xəbər
verdilər. 18 Yeşua dedi: «Mağaranın ağzına böyük
daşlar yuvarladın və onlara nəzarət etmək üçün
yanına adamlar qoyun. 19 Ancaq siz dayanmayın,
düşmənlərinizi təqib edin və arxadakıları da
qırın. Onları şəhərlərinə girməyə qoymayın.
Allahınız Rəbb onları sizə təslim edib». 20 Yeşua
və İsrail övladları düşməni çox ağır bir məğlubiyyətə
uğradaraq tamamilə qırdı. Sağ qalanlar isə qalalı
şəhərlərdə sığındı. 21 Bütün xalq Maqqedadakı
ordugaha, Yeşuanın yanına salamat qayıtdı və
bundan sonra İsrail övladlarına qarşı heç kim bir
söz deyə bilmədi.

22 O vaxt Yeşua dedi: «Mağaranın ağzını açın, bu
beş padşahı mağaradan mənim yanıma gətirin».
23 Elə də etdilər, mağaradan bu beş padşahı –
Yerusəlim padşahını, Xevron padşahını, Yarmut
padşahını, Lakiş padşahını və Eqlon padşahını

* **10:13** 2Şam. 1:18

onun yanına gətirdilər. 24 Bu padşahları Yeşuanın
yanına gətirən zaman o bütün İsrail adamlarını
çağırdı. Onunla gələn döyüşçülərin başçılarına
dedi: «Yaxınlaşın, ayaqlarınızı bu padşahların
boynuna qoyun». Onlar yaxınlaşdılar, ayaqlarını
onların boynuna qoydular. 25 Yeşua onlara
dedi: «Qorxmayın və ruhdan düşməyin, qüvvətli
və ürəkli olun, çünki Rəbb vuruşacağınız bütün
düşmənlərinizin başına bunları gətirəcək».
26 Ondan sonra Yeşua onları vurub öldürdü.
Onları beş ağacdan asdı və axşama kimi ağacdan
asılı qaldılar. 27 Gün batanda Yeşua əmr etdi ki,
onları ağacdan endirsinlər və onları gizləndikləri
mağaraya atdılar. Mağaranın ağzına da böyük daşlar
qoydular və bu daşlar bu günə qədər də oradadır.

28 Yeşua o gün Maqqedanı aldı, onları və onun
tərəfində olan bütün adamları tamamilə məhv
etdi, bir adamı belə, sağ buraxmadı. Yerixo
padşahının başına gətirdiyini Maqqeda padşahının
da başına gətirdi.

### *Yeşuanın cənub şəhərləri fəth etməsi*

29 Yeşua və onunla birgə bütün İsraillilər
Maqqedadan Livnaya keçdilər və Livnaya qarşı
vuruşdular. 30 Rəbb həm şəhəri, həm də onun
padşahını İsraillilərə təslim etdi. Yeşua padşahı və
orada olan bütün adamları qılıncdan keçirib bir
adamı belə, sağ buraxmadı. Yerixo padşahının
başına gətirdiyini oranın padşahının da başına
gətirdi.

31 Yeşua və onunla birgə bütün İsraillilər Liv-
nadan Lakişə keçib onların qarşısında dayanaraq
Lakişlilərlə vuruşdular. 32 Rəbb Lakişi İsraillilərə

təslim etdi və oranı ikinci gün aldılar. Livnada
etdikləri kimi Lakişi və oradakı bütün adamları
qılıncdan keçirtdilər. 33 O zaman Gezer padşahı
Horam Lakişə kömək etmək üçün gəldi. Yeşua bir
nəfəri də sağ buraxmadan onu və onun xalqını da
qırdı.

34 Yeşua və onunla birgə bütün İsraillilər Lakişdən
Eqlona keçdilər, onun qarşısına çıxıb Eqlonlularla
vuruşdular. 35 Elə həmin gün oranı aldılar və
qılıncdan keçirdilər. Lakişdə etdikləri kimi Eqlon-
dakı bütün adamları o gün tamamilə məhv etdilər.

36 Yeşua və onunla birgə bütün İsraillilər Eqlon-
dan Xevrona keçdilər və oradakılarla vuruşdular.
37 Oranı da alıb padşahını, bütün kəndləri və bütün
əhalisini qılıncdan keçirdilər. Eqlonda etdikləri
kimi Xevronda da heç kimi sağ qoymadılar, oranı
və oradakı bütün adamları tamamilə məhv etdilər.
38 Yeşua və onunla birgə bütün İsraillilər Devirə
qayıtdılar və oradakılarla vuruşdular. 39 Deviri,
onun padşahını və bütün kəndlərini alaraq
əhalisini qılıncdan keçirdilər. Orada olan bütün
adamları tamamilə məhv etdilər, heç kimi sağ
qoymadılar. Yeşua Xevronun, Livnanın və onun
padşahının başına gətirdiyini Devirin və onun
padşahının da başına gətirdi.

40 Yeşua bütün ölkəni – dağlıq yerləri, Negevi, ya-
maclı-düzənlikli bölgəni tutdu və bütün o yerlərin
padşahlarını qırdı. İsrailin Allahı Rəbbin əmr et-
diyi kimi heç kəsi sağ qoymadı, hər nəfəs alan
adamı tamamilə məhv etdi. 41 Yeşua Qadeş-
Barneadan Qəzzəyə və Giveona qədər bütün Qoşen
diyarında yaşayanları qırdı. 42 Yeşua bir dəfəyə

bütün padşahları və onların ölkələrini aldı, çünki
İsrailin Allahı Rəbb İsrail üçün vuruşdu. 43 Yeşua və
onunla birgə bütün İsraillilər Qilqaldakı ordugaha
qayıtdı.

# 11

*Yeşuanın şimal şəhərlərini fəth etməsi*

1 Xasor padşahı Yavin bunu eşidəndə Madon
padşahı Yovava, Şimron padşahına, Akşaf
padşahına, 2 şimalda – dağlıq yerlərdəki, Kinneretin
cənubunda olan Aravadakı, yamaclı-düzənlikli
bölgədəki və qərbdə yerləşən Nafot-Dordakı
padşahlara, 3 şərqdə və qərbdə yaşayan Kənanlılara
və Emorlulara, Xetlilərə, Perizlilərə, dağlıqda
yaşayan Yevuslulara, Xermon dağının aşağısındakı
Mispa diyarında yaşayan Xivlilərə xəbər göndərdi.
4 Bunlar özləri ilə birgə bütün orduları dəniz
sahilindəki qum kimi böyük xalq olaraq çoxlu at
və döyüş arabaları ilə gəldilər. 5 Bütün bu padşahlar
birləşdilər və İsraillilərlə vuruşmaq üçün gəlib
Merom suları yanında birgə ordugah qurdular.

6 Rəbb Yeşuaya dedi: «Onlardan qorxma, çünki
sabah bu vaxt hamısını İsraillilərin qarşısında
öldürüb təslim edəcəyəm, onların atlarının
ayaq vətərini kəsəcəksən, döyüş arabalarına od
vurub yandıracaqsan». 7 Yeşua və onunla birgə
bütün döyüşçülər Merom suları yanında qəflətən
düşmənlərin üstünə çıxdılar və onlara hücum
etdilər. 8 Rəbb onları İsraillilərə təslim edib qırdırdı.
İsraillilər böyük Sidona və Misrefot-Mayimə qədər,
şərq tərəfdəki Mispa vadisinə qədər düşmənləri

qovub heç kim sağ qalmayana qədər hamısını
qırdılar. 9 Yeşua Rəbbin ona dediyi kimi onlarla
rəftar etdi; atlarının ayaq vətərini kəsdi və döyüş
arabalarına od vurub yandırdı.
10 O vaxt Yeşua geri qayıdıb Xasoru aldı və onun
padşahını qılıncla öldürdü. Xasor əvvəlcə bütün bu
ölkələrin başı idi. 11 Orada olan bütün adamları
qılıncdan keçirib tamamilə məhv etdilər, nəfəs çəkən
bir nəfər də qalmadı. Sonra Xasora od vurdu.
12 Rəbbin qulu Musanın əmr etdiyi kimi Yeşua bu
padşahların bütün şəhərlərini və bütün padşahları
tutub hamısını qılıncdan keçirərək tamamilə məhv
etdi. 13 Ancaq Yeşuanın yandırdığı Xasordan
başqa təpəciklər üstündə olan şəhərlərdən heç
birini İsraillilər yandırmadılar. 14 İsrail övladları bu
şəhərlərin bütün əmlakını və heyvanlarını qarət
etdilər. Hamısını həlak edənədək qılıncdan keçirib
məhv etdilər, nəfəsi çəkən bir adam belə, qal-
madı. 15 Rəbbin qulu Musaya əmr etdiyini Musa
da Yeşuaya əmr etdi və Yeşua da belə etdi. Rəbb
Musaya nə əmr etmişdisə, hamısını yerinə yetirdi.
16 Yeşua Seirə çıxan Xalaq dağından, Xermon dağı
altında, Livan vadisindəki Baal-Qada qədər bütün
bu diyarı – dağları, 17 bütün Negevi, bütün Qoşen
diyarını, yamaclı-düzənlikli bölgəni, Aravanı və
İsrailin dağlıq və yamaclı-düzənlikli bölgəsini aldı.
Onların bütün padşahlarını tutdu və vurub öldürdü.
18 Yeşua uzun müddət bu padşahlarla vuruşdu.
19 Giveonun əhalisi olan Xivlilərdən başqa İsrail
övladları ilə sülh bağlayan başqa bir şəhər yox
idi. Bütün yerlər döyüşlə alınmışdı. 20 * Çünki

---

* **11:20** Qanun. 7:16

Rəbbin Musaya əmr etdiyi kimi İsraillilər onları
rəhm etmədən tamamilə məhv etdilər. Beləliklə,
İsraillilərə qarşı döyüşə çıxmağa onların ürəyini
sərtləşdirən Rəbbin Özü idi.
21 O vaxt Yeşua gedib dağlıq Xevronda, Devirdə,
Anavda, bütün Yəhudanın dağlıq bölgəsində və
bütün İsrailin dağlıq bölgəsində olan Anaqlıları qırıb
məhv etdi. Yeşua onları şəhərləri ilə birgə tamamilə
yerlə yeksan etdi. 22 İsrail övladlarının torpağında
Anaqlılar qalmadı, onlar ancaq Qəzzədə, Qatda
və Aşdodda qaldı. 23 Rəbbin Musaya dediyi kimi
Yeşua bütün ölkəni aldı. Yeşua oranı İsraillilərə,
hər qəbiləyə irs olaraq öz payını verdi. Ölkə
müharibədən əmin-amanlığa çıxdı.

# 12

### *İordan çayının şərq tərəfində Musanın qalib gəldiyi padşahlar*

1 * İsrail övladları bu padşahları öldürdülər və
onların torpaqlarını – İordan çayının şərqindəki
bütün Arava ilə Arnon vadisindən Xermon dağına
qədər olan yeri zəbt edib özlərinə mülk etdilər.
2 Xeşbonda yaşayan Emorluların padşahı Sixon bu
torpaqlarda hökmranlıq etmişdi: Arnon vadisi
sahilindəki Aroerdən və vadinin ortasındakı
Ammonluların sərhədi olan Yabboq çayına qədər
Gileadın yarısı, 3 şərqə tərəf Kinneret gölündən
Arava dənizinə, yəni Duz dənizinə qədər, şərqdə
Bet-Yeşimot istiqamətinə və cənuba tərəf Pisqa
yamaclarının ətəklərinə qədər Arava torpağı idi.

* **12:1** Say. 21:21-35; Qanun. 2:26–3:11

4 Sağ qalan Rafalılardan biri olan Başan padşahı
Oq Aştarotda və Edreidə hökmranlıq edirdi. 5 O,
Xermon dağında, Sakada, Geşurlular və Maakatlılar
sərhədinə qədər bütün Başanda, Xeşbon padşahı
Sixonun sərhədinə qədər Gileadın yarısında
hökmranlıq edirdi.
6 * Rəbbin qulu Musa və İsrail övladları on-
ları öldürdülər. Sonra Rəbbin qulu Musa on-
ların torpaqlarını irs olaraq Ruvenlilərə, Qadlılara,
Menaşşe qəbiləsinin yarısına verdi.

*İordan çayının qərb tərəfində Yeşuanın məğlub etdiyi padşahlar*

7 Livan vadisində olan Baal-Qaddan Seirə
çıxan Xalaq dağına qədər İordan çayının qərb
tərəfində olan torpaqlarda Yeşua ilə İsrail
övladlarının öldürdükləri padşahlar bunlardır:
8 Yeşua dağlıq bölgədə, yamaclı-düzənlikli bölgədə,
Aravada, yamaclarda, çöldə, Negevdə yerləşən
bu torpaqları, yəni Xetlilər, Emorlular, Kənanlılar,
Perizlilər, Xivlilər və Yevuslular ölkəsini, İsrail
qəbilələrinə torpaq payı kimi mülk olaraq verdi.
9 Yerixo padşahı;
Bet-Elin yanındakı Ay şəhərinin padşahı;
10 Yerusəlim padşahı;
Xevron padşahı;
11 Yarmut padşahı;
Lakiş padşahı;
12 Eqlon padşahı;
Gezer padşahı;
13 Devir padşahı;

* **12:6** Say. 32:33; Qanun. 3:12

Geder padşahı;
14 Xorma padşahı;
Arad padşahı;
15 Livna padşahı;
Adullam padşahı;
16 Maqqeda padşahı;
Bet-El padşahı;
17 Tappuah padşahı;
Xefer padşahı;
18 Afeq padşahı;
Laşşaron padşahı;
19 Madon padşahı;
Xasor padşahı;
20 Şimron-Meron padşahı;
Akşaf padşahı;
21 Taanak padşahı;
Megiddo padşahı;
22 Qedeş padşahı;
Karmeldəki Yoqneam padşahı;
23 Nafot-Dordakı Dor padşahı;
Qilqaldakı Qoyim padşahı;
24 Tirsa padşahı.
Bütün padşahlar cəmi 31 nəfər idi.

# 13

### *İsraillilərin almalı olduqları torpaqlar*

1 Yeşua qocalıb yaşa dolmuşdu. Rəbb ona dedi:
«Sən qocalıb yaşa dolmusan, ancaq mülk olaraq
almaq üçün olduqca çox yer qalıb.
2 Qalan yerlər bunlardır: Filiştlilərin bütün
əyalətləri, Geşurluların bütün torpaqları; 3 Misir
qarşısında olan Şixor çayından şimala tərəf

Kənanlıların torpağı sayılan Eqron sərhədinə
qədər torpaqlar; Filiştlilərin beş ağasına məxsus
Qəzzəlilərin, Aşdodluların, Aşqelonluların, Qatlıların
torpaqları və Eqronluların ağalarına məxsus
torpaqlar; Avvalıların torpağı; 4 cənubda bütün
Kənan torpağı, Sidonlulara məxsus Mearadan
Afeqə – Emorluların sərhədlərinə qədər olan
torpaqlar; 5 Gevallıların torpağı, Xermon dağı
ətəyində olan Baal-Qaddan Xamat keçidinə qədər
gün doğana tərəf bütün Livan; 6 * Livandan
Misrefot-Mayimə qədər bütün dağlıq əhalisi və
bütün Sidonluları da İsrail övladlarının qarşısından
Mən qovacağam. Ancaq sənə əmr etdiyim kimi bu
torpaqları İsraillilərə irs olaraq böl. 7 İndi bu yerləri
doqquz qəbilə ilə Menaşşe qəbiləsinin yarısına irs
olaraq böl».

### *İordan çayının şərq tərəfindəki torpaqların bölünməsi*

8 * Menaşşe qəbiləsinin yarısı ilə birgə Ruvenlilər
və Qadlılar Musanın İordan çayının şərq tərəfində
onlara verdiyi irs torpaqları, Rəbbin qulu
Musanın onlara verdiyi bu torpaqları almışdılar:
9 Arnon vadisi kənarında olan Aroerdən vadinin
ortasında olan şəhərlə Divona qədər bütün
Medva yaylası; 10 Ammonluların sərhədinə qədər
Xeşbonda hökmranlıq edən Emorluların padşahı
Sixonun bütün şəhərləri; 11 Gilead, Geşurlular və
Maakatlıların torpaqları, bütün Xermon dağı,
Salkaya qədər bütün Başan; 12 Aştarot və Edreidə
hökmranlıq edən, sağ qalan Rafalılardan biri olan

* **13:6** Say. 33:54 * **13:8** Say. 32:33; Qanun. 3:12

Oqun Başandakı bütün torpaqları; Musa bütün
bu torpaqlarda yaşayanları döyüşlə qovmuşdu.
13 Ancaq İsraillilər Geşurluları və Maakatlıları
qovmadılar. Geşurlularla Maakatlılar bu günə qədər
İsraillilər arasında yaşayır.

14 * Amma Levi qəbiləsinə irs olaraq torpaq ver-
ilmədi, çünki Rəbbin Musaya dediyi kimi onların
irsi İsrailin Allahı Rəbb üçün gətirilən yandırma
təqdimləridir.

### *Ruven qəbiləsinin İordan çayının şərq tərəfindən torpaq alması*

15 Musa Ruven övladlarının qəbiləsinə nəsillərinə
görə pay verdi. 16 Onların sərhədi belə idi:
Arnon vadisi kənarındakı Aroerdən, bu vadinin
ortasındakı şəhər və Medva yanında olan bütün
yayla; 17 Xeşbon və yaylada yerləşən şəhərlərin
hamısı – Divon, Bamot-Baal, Bet-Baal-Meon,
18 Yahsa, Qedemot, Mefaat, 19 Qiryatayim, Sivma,
dərə dağında olan Seret-Şahar, 20 Bet-Peor, Pisqa
yamacları, Bet-Yeşimot, 21 bu yaylanın bütün
şəhərləri, Xeşbonda hökmranlıq edən Emorlular
padşahı Sixonun bütün ölkəsi idi. Musa Sixonu və
Midyan başçıları olan və onun ölkəsində yaşayan
ağaları – Evini, Reqemi, Suru, Xuru, Revanı
öldürdü. 22 İsrail övladları öldürdükləri adamlarla
birgə Beor oğlu falçı Bilamı da qılıncdan keçirtdilər.
23 Ruven övladlarının sərhədi İordan çayı ilə sahil
torpaqları idi. Ruven övladlarının nəsillərinə görə
irsi olan şəhərlər və onların kəndləri bunlar idi.

---

* **13:14** Qanun. 18:1

### *Qad qəbiləsinin İordan çayının şərq tərəfindən torpaq alması*

24 Musa Qad qəbiləsinə, Qad övladlarına
nəsillərinə görə torpaq verdi. 25 Onların sərhədi isə
belə idi: Yazer, Gileadın bütün şəhərləri və Rabba
qarşısında olan Aroerə qədər Ammon övladları
ölkəsinin yarısı; 26 Xeşbondan Ramat-Mispa və
Betonimə qədər; Maxanayimdən Devir sərhədinə
qədər; 27 dərədə Bet-Haram, Bet-Nimra, Sukkot,
Safon, Xeşbon padşahı Sixonun ölkəsinin qalan
hissəsi, İordan çayı ilə onun sahil torpaqları, İordan
çayının şərq tərəfindən Kinneret gölünün cənub
sahilinə qədər. 28 Qad övladlarının nəsillərinə görə
torpaq irsi olan şəhərlər və onların kəndləri bunlar
idi.

### *Menaşşe qəbiləsinin yarısının İordan çayının şərq tərəfində torpaq alması*

29 Musa Menaşşe qəbiləsinin yarısına torpaq
verdi ki, bu da Menaşşe övladları qəbiləsinin
yarısı üçün, nəsillərinə görə idi. 30 Onların torpağı Maxanayimdən, bütün Başan diyarı, Başan
padşahı Oqun bütün ölkəsi və Başanda olan Yairin
bütün qəsəbələri də daxil olmaqla altmış şəhər idi.
31 Gileadın yarısı Başan padşahı Oqun ölkəsindəki
Aştarot və Edrei şəhərlərini də əhatə edirdi. Bunlar Menaşşe oğlu Makir övladlarına nəsillərinə görə
Makir övladlarının yarısına verilmək üçün idi.

32 Yerixo şəhərinin qarşısında, İordan çayının
şərq tərəfindəki Moav düzənliklərində Musanın
böldüyü irs olan torpaqlar bunlar idi. 33 * Ancaq

* **13:33** Say. 18:20; Qanun. 18:2

Musa Levi qəbiləsinə irs olaraq torpaq vermədi.
Rəbbin onlara dediyi kimi İsrailin Allahı Rəbb Özü
onların irsidir.

# 14

## *Kənan torpağının bölünməsi*

1 İsrail övladları Kənan torpağından irs olaraq
aldıqları torpaqlar bunlardır; bu torpaqları
kahin Eleazar, Nun oğlu Yeşua və İsrail övladları
qəbilələrinin nəsil başçıları, 2 * Rəbbin Musa
vasitəsilə buyurduğu kimi doqquz qəbilə və bir
qəbilənin yarısı üçün irs olaraq püşk ilə böldülər.
3 * Çünki Musa iki qəbilə ilə yarım qəbilənin irs
olan torpağını İordanın şərq tərəfində onlara
vermişdi, lakin onların arasında Levililərə irs
olaraq torpaq verməmişdi. 4 Çünki Yusif övladları
Menaşşe və Efrayim qəbiləsindən ibarət iki qəbilə
oldu. Bundan sonra Levililərə yaşamaqdan ötrü
şəhərlərdən, sürüləri və naxırları üçün otlaqlardan
başqa heç bir torpaq hissəsi verilmədi. 5 İsrail
övladları Rəbbin Musaya buyurduğu kimi etdilər
və torpağı bölüşdürdülər.

## *Kalevin Xevronu alması*

6 * Belə bir zamanda Yəhuda övladları Qilqala
– Yeşuanın yanına gəldilər. Qenizli Yefunne oğlu
Kalev Yeşuaya dedi: «Qadeş-Barneada Rəbbin səninlə
mənim haqqımda Allah adamı Musaya dediyi
sözü sən özün bilirsən. 7 * Rəbbin qulu Musa
ölkəni gözdən keçirtmək üçün Qadeş-Barneadan

* **14:2** Say. 26:52-56; 34:13 * **14:3** Say. 32:33; 34:14-15; Qanun. 3:12-17 * **14:6** Say. 14:30 * **14:7** Say. 13:1-30

məni göndərəndə qırx yaşında idim. Mən ona
səmimi qəlbdən müjdə gətirdim. 8 Lakin mənimlə
birlikdə gedən soydaşlarım xalqın ürəyini üzdülər.
Amma mən səmimi qəlblə Allahım Rəbbin ardınca
getdim. 9 * O gün Musa and içib dedi: “Sən qədəm
basdığın torpaq mütləq sənə və sənin övladlarına
əbədi irs olaraq veriləcək, çünki sən Allahım Rəbbin
ardınca səmimi qəlblə getdin”. 10 İndi artıq İsraillilər
səhrada gedərkən Rəbbin Musaya bu sözü dediyi
vaxtdan qırx beş il keçir. Rəbb dediyi kimi mənə
ömür verdi, bax mən bu gün səksən beş yaşındayam.
11 Musanın məni göndərdiyi vaxta olduğum kimi
bu gün də qüvvətliyəm. O zaman qüvvətim necə
idisə, indi də girib-çıxmaq və döyüşmək üçün elə
qüvvətim var. 12 Buna görə də Rəbbin o zaman
dediyi bu dağlıq yeri sən indi mənə ver. Bu
dağlıq yerdə Anaqlıların, böyük və qala divarlı
şəhərlərin olduğunu o gün sən də eşitdin. Bəlkə
Rəbb mənimlə olar və mən də Rəbbin dediyi kimi
onları qovaram».

13 Yeşua ona xeyir-dua verdi. Xevronu
Yefunne oğlu Kalevə irs olaraq verdi. 14 Bunun
üçün Xevron bu günə qədər Qenizli Yefunne
oğlu Kalevin irs torpağıdır. Çünki o, səmimi
qəlblə İsrailin Allahı Rəbbin ardınca getmişdi.
15 Xevronun adı əvvəlcə Qiryat-Arba idi. Anaqlılar
arasında Arba ən böyük adam olmuşdu.

Ölkə müharibədən dincliyə çıxdı.

# 15

### *Yəhuda qəbiləsinin torpaqları*

* **14:9** Say. 14:24

1 Nəsillərinə görə Yəhuda övladları qəbiləsinin
irs torpağı Edom sərhədinə, cənuba doğru və
oranın ən cənubunda yerləşən Zin səhrasına qədər
idi. 2 Onların cənub sərhədi Duz dənizi qurtaran
yerdən – cənubda yerləşən körfəzdən başlayırdı.
3 Aqrabbim keçidinin cənubundan keçib Zinə
çatırdı və oradan Qadeş-Barneanın cənubundan
qalxaraq Xesrona çatırdı. Buradan Addara qalxıb
Qarqaya dönürdü. 4 * Sonra isə Asmonadan keçib
Misir vadisinə çıxırdı və bu sərhədin sonu dənizdə
qurtarırdı. Rəbb demişdi ki, cənub sərhədiniz bura
olacaq. 5 Şərq sərhədi İordan çayının mənsəbindən
Duz dənizi boyunca idi. Şimal tərəfdən isə bu
sərhəd İordan çayının mənsəbində yerləşən su
körfəzindən başlayırdı. 6 Sonra bu sərhəd Bet-
Xoqlaya qalxaraq Bet-Aravanın şimalından keçirdi
və Ruven oğlu Bohanın qayasına çatırdı. 7 Sonra isə
Akor dərəsindən Devirə çıxıb oranın cənubundakı
Adummim yoxuşu qarşısında olan Qilqala doğru,
şimala yönəlirdi. Buradan isə En-Şemeş sularına
keçirdi və onun sonu En-Rogeldə qurtarırdı.
8 Sonra sərhəd Ben-Hinnom vadisindən cənuba
doğru Yevusluların şəhərinin, yəni Yerusəlimin
arxasından keçib buradan Refaim vadisinin şimal
qütbündə olan Hinnom vadisinin qərbindəki dağın
təpəsinə qalxırdı. 9 Bu dağın təpəsindən isə Neftoah
sularının mənbəyinə doğru uzanıb Efron dağındakı
şəhərlərə çıxır və oradan Baalaya, yəni Qiryat-
Yearimə tərəf uzanırdı. 10 Baaladan qərbə doğru,
Seir dağına qədər dönəndən sonra Yearim dağının,
yəni Kesalonun şimal tərəfindən keçib Bet-Şemeşə

* **15:4** Say. 34:3-5

enərək Timnaya çatırdı. 11 Sonra isə Eqronun
yanından şimala doğru çıxaraq Şikkerona uzanıb
Baala dağına keçərək Yavneelə qalxırdı. Burada
sərhədin sonu dənizdə qurtarırdı. 12 Böyük dənizin
sahili qərb sərhədi idi. Nəsillərinə görə Yəhuda
övladlarına verilən torpağın sərhədi belə idi.

### *Kalevlə Otnielin Xevron və Deviri alması*

13 Rəbbin əmrinə görə Yeşua Yəhudalıların tor-
pağında olan Qiryat-Arbanı, yəni Xevronu irs
olaraq Yefunne oğlu Kalevə verdi. Arba Anaqın
atası idi. 14 * Kalev Anaq oğullarından Anaqın üç
oğlu Şeşayı, Aximanı və Talmayı oradan qovdu.
15 Bundan sonra Devir əhalisinə qarşı çıxdı. De-
virin əvvəlki adı Qiryat-Sefer idi. 16 Kalev dedi:
«Kim Qiryat-Seferliləri qırıb oranı alarsa, qızım Ak-
sanı ona ərə verəcəyəm». 17 Oranı Kalevin qardaşı
Kenazın oğlu Otniel aldı. Kalev də qızı Aksanı ona
ərə verdi. 18 Aksa ona ərə gedəndə ərini atasından
bir tarla istəməyə sövq etdirdi. Qız eşşəyindən
düşəndə Kalev ona dedi: «Nə istəyirsən?» 19 Aksa
dedi: «Mənə bir pay da ver. Madam ki Negev
torpağını mənə verdin, onda su qaynaqlarını da
mənə ver». Kalev ona yuxarıdakı və aşağıdakı su
qaynaqlarını verdi.

### *Yəhuda qəbiləsinin şəhərləri*

20 Nəsillərinə görə Yəhuda övladlarının
qəbiləsinin irs torpağı budur: 21 Yəhuda övladları
qəbiləsinin Edom sərhədinə doğru ən cənubda
yerləşən şəhərləri bunlardır: Qavseel, Eder, Yaqur,
22 Qina, Dimona, Adada, 23 Qedeş, Xasor, İtnan,

* **15:14** Hak. 1:10-15,20

24 Zif, Telem, Bealot, 25 Xasor-Xadatta, Qeriyot-
Xesron, yəni Xasor 26 Amam, Şema, Molada,
27 Xasar-Qadda, Xeşmon, Bet-Pelet, 28 Xasar-Şual,
Beer-Şeva, Bizyotya, 29 Baala, İyim, Esem, 30 Eltolad,
Kesil, Xorma, 31 Ziqlaq, Madmanna, Sansanna,
32 Levaot, Şilxim, Ayin və Rimmon. Bu şəhərlərin
hamısı kəndləri ilə birlikdə iyirmi doqquz şəhər
idi.

33 Yamaclı-düzənlikli bölgədə yerləşən şəhərlər
isə bunlardır: Eştaol, Sora, Aşna, 34 Zanoah, En-
Qannim, Tappuah, Enam, 35 Yarmut, Adullam,
Soko, Azeqa, 36 Şaarayim, Aditayim, Gedera və
Gederotayim. Bunlar da kəndləri ilə birlikdə on
dörd şəhər idi.

37 Senan, Xadaşa, Miqdal-Qad, 38 Dilan, Mispe,
Yoqteel, 39 Lakiş, Bosqat, Eqlon, 40 Kabbon, Lax-
mas, Kitliş, 41 Gederot, Bet-Daqon, Naama və
Maqqeda. Bunlar da kəndləri ilə birlikdə on altı
şəhər idi.

42 Livna, Eter, Aşan, 43 İftah, Aşna, Nesiv, 44 Qeila,
Akziv və Mareşa. Bunlar da kəndləri ilə birlikdə
doqquz şəhər idi.

45 Qəsəbələri və kəndləri ilə birlikdə Eqron,
46 Eqrondan dənizə qədər kəndləri ilə birlikdə
bütün Aşdod ətrafında yerləşənlər, 47 Aşdod və
onun qəsəbələri ilə kəndləri, Misir vadisinə və
Böyük dənizin sahilinə qədər olan Qəzzə və onun
qəsəbələri ilə kəndləri.

48 Dağlıq bölgəsində yerləşən şəhərlər isə bun-
lardır: Şamir, Yattir, Soko, 49 Danna, Qiryat-Sanna,
yəni Devir, 50 Anav, Eştemo, Anim, 51 Qoşen, Xolon

və Gilo. Bunlar da kəndləri ilə birlikdə on bir şəhər
idi.
52 Arav, Ruma, Eşan, 53 Yanim, Bet-Tappuah,
Afeqa, 54 Xumta, Qiryat-Arba, yəni Xevron, Sior.
Bunlar da kəndləri ilə birlikdə doqquz şəhər idi.

55 Maon, Karmel, Zif, Yutta, 56 İzreel, Yoqdeam,
Zanoah, 57 Qayin, Givea, Timna. Bunlar da
kəndləri ilə birlikdə on şəhər idi.
58 Xalxul, Bet-Sur, Qedor, 59 Maarat, Bet-Anot,
Elteqon. Bunlar da kəndləri ilə birlikdə altı şəhər
idi.
60 Qiryat-Baal, yəni Qiryat-Yearim, Rabba. Bunlar da kəndləri ilə birlikdə iki şəhər idi.
61 Çöllükdə yerləşən şəhərlər isə bunlardır: Bet-
Arava, Middin, Sekaka, 62 Nivşan, Duz şəhəri, En-
Gedi. Bunlar da kəndləri ilə birlikdə altı şəhər idi.
63 * Yəhuda övladları Yerusəlimdə yaşayan Yevusluları qova bilmədilər və Yevuslular bu günə qədər Yəhuda övladları ilə birlikdə Yerusəlimdə yaşayır.

# 16

## *Menaşşe və Efrayim qəbilələrinə düşən torpağın cənub sərhədi*

1 Yusif övladlarına püşk ilə düşən torpaqların
sərhədi şərqdən Yerixo sularından – qarşısındakı
İordan çayından başlayıb çöllüyə, Yerixodan Bet-Elin
dağlıq bölgəsinə qalxırdı. 2 Bet-Eldən isə Luza çıxıb
Arklılar torpağına, Atarota keçirdi. 3 Sonra qərbə
doğru Aşağı Bet-Xoron torpağına qədər, Yafletlilər torpağına, bundan sonra isə Gezerə qədər enirdi. Bu sərhədin sonu dənizdə qurtarırdı.

---

* **15:63** Hak. 1:21; 2Şam. 5:6; 1Saln. 11:4

4 Yusifin övladları Menaşşe və Efrayim
torpaqlarını irs olaraq aldılar.

### *Efrayim qəbiləsinin torpaqları*

5 Efrayim övladlarının nəsillərinə görə irs
torpağının sərhədi belə idi. Şərqə doğru Atrot-
Addardan Yuxarı Bet-Xorona qədər gedib dənizdə
bitirdi. 6 Şimal tərəfdən isə Mikmetatdan şərqə
tərəf uzanıb, Taanat-Şilo şəhərinin şərqindən
dönərək Yanoahın şərqinə çıxırdı. 7 Yanoahdan
isə Atarota və Naaraya enərək oradan Yerixoya
çatır və sonu İordan çayında qurtarırdı. 8 Bu
sərhəd Tappuahdan qərbə tərəf Qana vadisinə
gedərək sonu dənizdə bitirdi. Nəsillərinə görə
Efrayim övladları qəbiləsinin irs torpağı bunlardır.
9 Bundan əlavə, Menaşşe övladlarına düşən
torpaqlarda da Efrayim övladları üçün ayrılan
şəhər və kəndlər var idi.

10 * Amma Efrayim övladları Gezerdə yaşayan
Kənanlıları qovmadılar. Onlar bu günə qədər
Efrayim övladları arasında yaşayır, Efrayim övladları
üçün mükəlləfiyyətçi quldurlar.

# 17

### *Menaşşe qəbiləsinin torpaqları*

1 Menaşşe qəbiləsinin püşkünə bu torpaqlar
düşdü: Menaşşe Yusifin ilk oğlu idi. Gileadın
atası Makir isə Menaşşenin ilk oğlu idi. Makir
döyüşçü olduğu üçün Gilead və Başan torpağı onun
oldu. 2 Menaşşenin o biri oğulları – Aviezerin,
Xeleqin, Asrielin, Şekemin, Xeferin və Şemidanın

* **16:10** Hak. 1:29

oğulları üçün də nəsillərinə görə püşk düşdü. Bunlar
nəsillərinə görə Yusif oğlu Menaşşenin kişi nəsli idi.
3 Lakin Menaşşe oğlu Makir oğlu Gilead oğlu
Xefer oğlu Selofxadın oğlanları yox idi, ancaq
qızları var idi. Qızlarının adları belə idi: Maxla,
Noa, Xoqla, Milka, Tirsa. 4 * Onlar kahin Eleazarın,
Nun oğlu Yeşuanın və rəhbərlərin qarşısına
gəlib dedilər: «Rəbb Musaya buyurmuşdu ki,
soydaşlarımızın yanında bizə irs torpaq versin».
Onda Yeşua Rəbbin əmrinə görə atalarının kişi
qohumları arasında onlara irs olaraq torpaq
verdi. 5 Menaşşeyə İordan çayının o tayında olan
Gilead və Başan torpağından başqa on hissə torpaq
da düşdü, 6 çünki Menaşşe qızları da onun oğulları
arasından irs olaraq torpaq aldılar. Gilead diyarı
Menaşşenin qalan oğullarına məxsus idi.
7 Menaşşenin sərhədi Aşerdən Şekemin şərqində
olan Mikmetata uzanaraq cənuba tərəf En-
Tappuah əhalisinin yerlərinə gəlib çatırdı.
8 Tappuah torpağı Menaşşenin idi, amma Menaşşe
sərhədində olan Tappuah şəhəri isə Efrayim
oğullarına məxsus idi. 9 Sərhəd Qana vadisinə
enirdi. Bu vadinin cənubunda olan şəhərlər
Menaşşenin şəhərləri arasında olsa da, Efrayimin
idi. Menaşşenin sərhədi vadinin şimal tərəfində
idi, sonu isə dənizdə qurtarırdı. 10 Sərhədin
cənubu Efrayimin, şimalı isə Menaşşenin idi.
Dəniz də Menaşşenin sərhədi idi. Sərhəd şimaldan
Aşerə, şərqdən İssakara gedib çatırdı. 11 İssakar
və Aşer torpaqlarının daxilində olan bu şəhərlər
Menaşşenin idi: Bet-Şeanla qəsəbələri, İvleamla

* **17:4** Say. 27:1-7

qəsəbələri, Dorla qəsəbələrinin əhalisi, En-Dorla qəsəbələrinin əhalisi, Taanakla qəsəbələrinin əhalisi, Megiddo ilə qəsəbələrinin əhalisi. Bunlar birlikdə üç bölgədən ibarət idi.

12 * Menaşşe övladları bu şəhərlərdə yaşayanları qova bilmədilər, buna görə Kənanlılar da bu torpaqda qaldılar.
13 İsraillilər qüvvətlənəndə Kənanlıları özlərinə mükəlləfiyyətçi etdilər, amma tamamilə qovmadılar.

*Efrayim ilə Menaşşe qəbilələrinin çox torpaq istəməsi*

14 Yusif övladları Yeşuaya belə dedilər: «İrs torpaq almaq üçün niyə bizə tək püşklə bir pay verdin? Biz böyük xalqıq və indiyə qədər Rəbb bizə bərəkət verib».
15 Yeşua onlara dedi: «Əgər siz böyük xalqsınızsa və Efrayimin dağlıq bölgəsi sizə darlıq edirsə, meşəliyə çıxın, orada Perizlilər və Rafalılar torpağında özünüzə yer edin».
16 Yusif övladları dedilər: «Dağlıq bölgəsi bizə bəs deyil. Ancaq dərədə olan torpaqda – Bet-Şean və onun qəsəbələrində, İzreel vadisində yaşayan bütün Kənanlıların dəmir döyüş arabaları var».
17 Onda Yeşua Yusif nəslinə – Efrayimlilərə və Menaşşelilərə belə dedi: «Siz böyük xalqsınız, qüvvətiniz də böyükdür, ona görə sizə bir püşk kifayət deyil.
18 Dağlıq bölgə də sizin olacaq, o yer meşəlikdir, amma siz oranı təmizləyəcəksiniz və bütünlüklə sizin olacaq. Kənanlılar qüvvətli olsa da, onların dəmir döyüş arabaları olsa da, siz onları qova biləcəksiniz».

* **17:12** Hak. 1:27-28

# 18

## *Qalan torpaqların bölünməsi*

1 Bütün İsrail övladlarının icması Şiloya yığışıb
orada Hüzur çadırını qurdu. Bu torpaq onların
hökmranlığı altında idi. 2 İsrail övladlarının yeddi
qəbiləsi arasında isə irs olan torpaqlar hələ paylan-
mamışdı. 3 Yeşua İsrail övladlarına dedi: «Atalarınızın
Allahı Rəbbin sizə verdiyi torpağa mülk sahibi
kimi girməyə nə vaxta qədər tərəddüd edəcəksiniz?
4 Hər qəbilədən özünüzə üç adam seçin. On-
ları göndərəcəyəm ki, çıxıb ölkəni dolaşsınlar və
alacaqları irs torpaqlara görə oranı təsvir edib
mənim yanıma gəlsinlər. 5 Onlar oranı yeddi
hissəyə bölsünlər. Yəhuda cənubda olan öz tor-
pağında qalsın, Yusifin nəsli də şimalda olan tor-
pağında qalsın. 6 Siz ölkəni yeddi hissə kimi təsvir
edin və təsviri buraya mənə gətirin. Burada Al-
lahımız Rəbbin hüzurunda sizin üçün püşk ata-
cağam. 7 Amma aranızda Levililərin payı yoxdur,
çünki onların irsi Rəbbin kahinliyidir. Qad, Ru-
ven qəbilələri və Menaşşe qəbiləsinin yarısı İordan
çayının şərq tərəfində Rəbbin qulu Musanın onlara
verdiyi irs olan torpaqlarını aldılar».

8 Adamlar qalxıb gedəndə Yeşua onlara ölkəni
təsvir edərək yazmağı əmr edib dedi: «Gedin, ölkəni
gəzib oranı yazılı təsvir edərək yanıma qayıdın.
Mən də burada, Şiloda, Rəbbin hüzurunda sizin
üçün püşk atacağam». 9 Adamlar gedib ölkəni
dolaşdılar. Şəhərlərinə görə oranı yeddi hissəyə
ayıraraq təsvirini kitaba yazıb Şilodakı ordugaha,
Yeşuanın yanına qayıtdılar. 10 Yeşua Şiloda Rəbbin

hüzurunda onlar üçün püşk atdı və orada İsrail övladlarının paylarına görə torpağı payladı.

### *Binyamin qəbiləsinin torpaqları*

11 İlk püşk nəsillərinə görə Binyamin övladları qəbiləsinə düşdü. Onlara düşən hissə Yəhuda övladları ilə Yusif övladlarının torpağı arasında idi.
12 Şimal tərəfdən onların sərhədi İordan çayından başlayırdı. Sərhəd Yerixonun şimal tərəfindəki yamacına yüksəlirdi, sonra qərbə doğru dağlığa qalxırdı, sonu isə Bet-Aven çölündə qurtarırdı.
13 Oradan cənuba doğru sərhəd Luza, yəni Bet-Elə və Luzun yamacına çatırdı. Sonra sərhəd Aşağı Bet-Xoronun cənubunda olan dağlıqdan Atrot-Addara
enirdi. 14 Sərhəd oradan uzanaraq qərb tərəfdən cənuba doğru, Bet-Xoronun qarşısında olan dağdan da cənuba doğru dönürdü. Onun sonu Yəhuda övladlarının şəhəri olan Qiryat-Baalda, yəni Qiryat-
Yearimdə qurtarırdı; qərb sərhədi bu idi. 15 Cənub sərhədi Qiryat-Yearimin ən son hissəsindən qərbə doğru Neftoah sularının mənbəyinə çatırdı.
16 Ondan sonra sərhəd Refaim vadisinin şimalında Ben-Hinnom vadisinin qarşısındakı dağın ən son hissəsinə enirdi; buradan da cənuba doğru Hinnom vadisinə, Yevusun cənub yamacına enib
En-Rogelə çatırdı, 17 sonra sərhəd şimala doğru uzanaraq En-Şemeşə çıxırdı, Adummim yoxuşu qarşısında olan Gelilota çatırdı; oradan da Ruven
oğlu Bohanın qayasına enirdi, 18 sonra şimala doğru Aravanın qarşı tərəfinə keçib Aravaya enirdi.
19 Sərhəd şimala doğru Bet-Xoqla yoxuşuna keçir, sərhədin sonu Duz dənizinin şimal körfəzində, İordan çayının cənubunda qurtarırdı. Bu, cənub

sərhədi idi. 20 Onun şərq tərəfdən sərhədi İordan
çayı idi. Nəsillərinə görə Binyamin oğullarının irs
torpaqlarının ərazisi bunlar idi.
21 Nəsillərinə görə Binyamin övladları qəbiləsinin
şəhərləri bunlar idi: Yerixo, Bet-Xoqla, Emeq-
Qesis, 22 Bet-Arava, Semarayim, Bet-El, 23 Avvim,
Para, Ofra, 24 Kefar-Ammonay, Ofni, Geva, yəni
kəndləri ilə birlikdə on iki şəhər; 25 Giveon, Rama,
Beerot, 26 Mispe, Kefira, Mosa, 27 Reqem, İrpeel,
Tarala, 28 Sela, Elef, Yevus, yəni Yerusəlim,
Givea, Qiryat, yəni kəndləri ilə birlikdə on dörd
şəhər. Nəsillərinə görə Binyamin övladlarının irs
torpaqları bunlardır.

# 19

*Şimeon qəbiləsinin torpaqları*

1 İkinci püşk nəsillərinə görə Şimeona – Şimeon
övladlarının qəbiləsinə düşdü. Onların irs torpağı
Yəhuda övladlarının irs torpağı arasında idi. 2 *
Onların irs torpaqları bunlar idi: Beer-Şeva, Şeva,
Molada, 3 Xasar-Şual, Bala, Esem, 4 Eltolad, Be-
tul, Xorma, 5 Ziqlaq, Bet-Markavot, Xasar-Susa,
6 Bet-Levaot, Şaruxen, yəni kəndləri ilə birlikdə
on üç şəhər; 7 Ayin, Rimmon, Eter, Aşan, yəni
kəndləri ilə birlikdə dörd şəhər; 8 Baalat-Beerə, yəni
cənubda Ramaya qədər bu şəhərlərin ətrafındakı
bütün kəndlər onların irs olan torpağı idi. Bunlar
nəsillərinə görə Şimeon övladları qəbiləsinin irs olan
torpaqlarıdır. 9 Şimeon övladlarının irs olan torpağı
Yəhuda övladlarının payından oldu, çünki Yəhuda
övladlarının payı onlar üçün çox idi. Buna görə

* **19:2** 1Saln. 4:28-33

də Şimeon övladları onların torpaqları arasında irs
torpaqlarını aldılar.

*Zevulun qəbiləsinin torpaqları*

10 Üçüncü püşk nəsillərinə görə Zevulun
övladlarına düşdü. Onların irs olan torpağının
sərhədi Saridə qədərdir. 11 Sonra sərhədi Maralaya
qədər – qərbə doğru yüksəlib Dabbeşetdən
keçərək Yoqneam qarşısında olan vadiyə çatırdı.
12 Sariddən şərqə – gün doğana tərəf Kislot-
Tavor sərhədinə dönüb Davrata qalxaraq Yafiaya
yüksəlirdi. 13 Oradan şərqə doğru Qat-Xeferə, Et-
Qasinə keçirdi və Neaya dönən Rimmona qalxırdı.
14 Şimala tərəf sərhəd Xannatona dönüb sonu İftah-
El dərəsində idi. 15 Qattat, Nahalal, Şimron, İdala,
Bet-Lexem, yəni kəndləri ilə birlikdə on iki şəhər
idi. 16 Nəsillərinə görə Zevulun övladlarının irsi
olan torpaq kəndləri ilə birlikdə bu şəhərlər idi.

*İssakar qəbiləsinin torpaqları*

17 Dördüncü püşk nəsillərinə görə İssakara – İssakar
övladlarına düşdü. 18 Onların torpağı İzreel, Kesulot,
Şunem, 19 Xafarayim, Şion, Anaxarat, 20 Rabbit,
Qişyon, Eves, 21 Remet, En-Qannim, En-Xadda,
Bet-Passes idi. 22 Sərhəd Tavora, Şaxsivmaya, Bet-
Şemeşə çatırdı. Sərhədlərinin sonu İordan çayında
idi. Bunlar kəndləri ilə birlikdə on altı şəhər idi.
23 Nəsillərinə görə İssakar övladları qəbiləsinin irs
olan kəndləri ilə birlikdə bu şəhərlər idi.

*Aşer qəbiləsinin torpaqları*

24 Beşinci püşk nəsillərinə görə Aşer övladları
qəbiləsinə düşdü. 25 Onların torpağı Xelqat, Xali,

Beten, Akşaf, 26 Alamelek, Amad və Mişal idi.
Sərhəd qərbə tərəf Karmelə, Şixor-Livnata çatırdı,
27 Gündoğana tərəf Bet-Daqona dönürdü. Sonra
şimala tərəf Zevuluna, İftah-El dərəsinə, oradan Bet-
Emeqə, Neielə çatırdı, sonra şimala doğru Kavula,
28 Evrona, Rexova, Xammona, Qanaya, böyük
Sidona qədər çatırdı. 29 Onda sərhəd Ramaya,
qalalı Sur şəhərinə dönürdü. Sərhəd Xosaya
dönürdü, sonu Akziv, 30 Uma, Afeq, Rexov tor-
pağında dənizdə qurtarırdı. Bunlar kəndləri ilə
birlikdə iyirmi iki şəhər idi. 31 Nəsillərinə görə Aşer
övladları qəbiləsinin irs olan torpaqları kəndləri ilə
birlikdə bu şəhərlər idi.

### *Naftali qəbiləsinin torpaqları*

32 Altıncı püşk Naftali övladları üçün nəsillərinə
görə Naftali övladlarına düşdü. 33 Onların
sərhədi Xelefdən Saanannimdəki palıd ağacından
başlayaraq Adami-Negev və Yavneeli keçib
Laqquma çatır, sonu isə İordan çayında bitirdi.
34 Sərhəd qərbə doğru Aznot-Tavora dönüb oradan
Xuqoqa qalxırdı. Cənubda Zevuluna, qərbdə Aşerə,
gündoğana tərəf İordan çayına * çatırdı. 35 Qalalı
şəhərlər bunlar idi: Siddim, Ser, Xammat, Raqqat,
Kinneret, 36 Adama, Rama, Xasor, 37 Qedeş, Edrei,
En-Xasor, 38 İreon, Miqdal-El, Xorem, Bet-Anat,
Bet-Şemeş. Bunlar kəndləri ilə birlikdə on doqquz
şəhər idi. 39 Nəsillərinə görə Naftali övladları
qəbiləsinin irs olan torpaqları kəndləri ilə birlikdə
bu şəhərlər idi.

---

* **19:34** İordan çayına – yaxud İordan çayından Yəhudaya.

### *Dan qəbiləsinin torpaqları*

40 Yeddinci püşk nəsillərinə görə Dan övladları
qəbiləsinə düşdü. 41 İrs torpaqları bunlar idi:
Sora, Eştaol, İr-Şemeş, 42 Şaalabbin, Ayyalon, İtla,
43 Elon, Timna, Eqron, 44 Elteqe, Gibbeton, Baalat,
45 Yehud, Bene-Beraq, Qat-Rimmon, 46 Me-Yarqon,
Yafo qarşısında olan sərhədi ilə Raqqon. 47 * Amma
Dan övladlarının torpağı onların əlindən çıxdı. Ona
görə də Dan övladları Leşem üzərinə döyüşə getdilər.
Oranı alıb əhalisini qılıncdan keçirtdilər və oraya
sahib olub məskən saldılar. Ataları Danın şərəfinə
görə Leşemə Dan adı verdilər. 48 Nəsillərinə görə
Dan övladları qəbiləsinin irs olan kəndləri ilə birlikdə bu şəhərlər idi.

### *Torpağın bölüşdürülməsinin başa çatması*

49 Ölkəni torpaq paylarına görə irs olaraq
bölüşdürüb qurtarandan sonra İsrail övladları Nun
oğlu Yeşuaya aralarında irs olaraq torpaq verdilər.
50 Rəbbin əmrinə görə istədiyi şəhəri – Efrayimin
dağlıq bölgəsində Timnat-Serahı ona verdilər. O
da bu şəhəri tikib orada yaşadı.

51 Şilodakı Hüzur çadırının girişində, Rəbbin
hüzurunda kahin Eleazarın, Nun oğlu Yeşuanın,
İsrail qəbilələrinin nəsil başçılarının püşk ilə
bölüşdürdükləri irs torpaqlar bunlar idi. Beləliklə,
onlar ölkənin bölüşdürülməsini başa çatdırdılar.

## 20

### *Altı sığınacaq şəhər*

* **19:47** Hak. 18:27-29

1 Rəbb Yeşuaya dedi: 2 «İsrail övladlarına söylə:
“Özünüz üçün Musa vasitəsilə dediyim sığınacaq
şəhərləri seçin ki, 3 bilmədən, səhvən bir adamı
öldürən qatil oraya qaçsın. Ora sizin üçün qan
qisasını alan adamdan sığınacaq yeri olsun. 4 Qoy
qatil bu şəhərlərdən birinə qaçsın, şəhər qapısının
girəcəyində dursun. Orada o şəhərin ağsaqqallarına
öz əməlini söyləsin. Onlar da onu şəhərə, yanlarına
aparsınlar və yer versinlər ki, onlarla yaşasın.
5 Əgər qan qisası alan onu təqib edərsə, o za-
man qatili ona təslim etməsinlər, çünki qonşusunu
bilmədən öldürmüşdür, əvvəldən onunla ədavəti
yox idi. 6 Bu adam icma qarşısında hökm alana
qədər və o dövrdə olan baş kahinin ölümünə qədər
qoy bu şəhərdə yaşasın. Bundan sonra qatil qaçdığı
şəhərə, öz şəhərinə, öz evinə qayıda bilər”».
7 Sığınacaq şəhər üçün Qalileyada, Naftalinin
dağlıq bölgəsində Qedeşi, Efrayimin dağlıq
bölgəsində Şekemi və Yəhudanın dağlıq bölgəsində
Qiryat-Arbanı, yəni Xevronu ayırdılar. 8 İordan
çayının şərqində, Yerixonun şərqində isə Ruven
qəbiləsinin torpağından yaylada yerləşən
səhradakı Beseri, Qad qəbiləsinin torpağından
olan Gileaddakı Ramotu, Menaşşe qəbiləsindən
olan Başanda Qolanı ayırdılar. 9 Bilmədən
qətl edən hər bir kəs oraya qaçsın və icma
qarşısında dayananadək qan qisasını alanın əli
ilə öldürülməsin deyə bütün İsraillilərlə aralarında
yaşayan yadellilər üçün təyin olunan şəhərlər
bunlar idi.

# 21

## *Levililərə verilən şəhərlər*

1 * O zaman Levililərin nəsil başçıları kahin
Eleazara, Nun oğlu Yeşuaya və İsrail övladları
qəbilələrinin nəsil başçılarına yaxınlaşdılar. 2 Kənan
torpağında yerləşən Şiloda onlara belə dedilər:
«Rəbb Musa vasitəsilə bizə yaşamaq üçün şəhərlər,
heyvanlarımız üçün otlaqlar verməyi əmr
edib». 3 İsrail övladları Rəbbin əmrinə görə öz irs
torpaqlarından bu şəhərləri və oranın otlaqlarını
Levililərə verdilər.

4 Püşk Qohatdan olan nəsillərə düşdü. Lev-
ililərdən olan kahin Harun övladlarına Yəhuda,
Şimeon və Binyamin qəbilələrindən püşk ilə on üç
şəhər verildi. 5 Digər Qohat övladlarına isə Efrayim
qəbiləsinin nəsillərindən, Dan qəbiləsindən və
Menaşşe qəbiləsinin yarısından püşk ilə on şəhər
verildi.

6 Gerşon övladlarına İssakar qəbiləsi nəsillərindən,
Aşer, Naftali qəbilələrindən, Başanda Menaşşe
qəbiləsinin yarısından püşk ilə on üç şəhər verildi.

7 Nəsillərinə görə Merari övladlarına Ruven, Qad,
Zevulun qəbilələrindən on iki şəhər verildi.

8 İsrail övladları Musa vasitəsilə Rəbbin əmr et-
diyinə görə bu şəhərləri və onların otlaqlarını püşk
ilə Levililərə verdilər. 9 Onlara Yəhuda və Şimeon
övladlarının qəbilələrindən adları göstərilən bu
şəhərləri verdilər. 10 Bunlar Levililərdən olan Qo-
hat övladlarından Harun övladları üçün idi, çünki ilk
püşk onların idi. 11 Yəhudanın dağlıq bölgəsindəki

* **21:1** Say. 35:1-8

Anaqlıların atası Arbanın adı ilə adlanan Qiryat-
Arba şəhərini, yəni Xevronu və ətrafında olan ot-
laqları onlara verdilər. 12 Amma şəhərin tarlaları
ilə kəndlərini mülk olaraq Yefunne oğlu Kalevə
verdilər.

13 Kahin Harun övladlarına qatillər üçün bu
sığınacaq şəhərləri verdilər: Xevronla otlaqlarını,
Livna ilə otlaqlarını, 14 Yattirlə otlaqlarını, Eştemoa
ilə otlaqlarını, 15 Xolonla otlaqlarını, Devirlə ot-
laqlarını, 16 Ayin, Yutta, Bet-Şemeş şəhərləri ilə
otlaqlarını. Bu, iki qəbilədən cəmi doqquz şəhər
idi. 17 Binyamin qəbiləsindən isə bu şəhərləri
verdilər: Giveonla otlaqlarını, Geva ilə otlaqlarını,
18 Anatotla otlaqlarını, Almonla otlaqlarını. Bu,
dörd şəhər idi. 19 Harun övladlarının, kahinlərin
bütün şəhərləri otlaqları ilə birgə on üç şəhər idi.

20 Levililərdən olan digər Qohat övladlarına
nəsillərinə görə püşklə düşən Efrayim qəbiləsinə
aid şəhərləri verdilər. 21 Onlara Efrayimin dağlıq
bölgəsində qatillər üçün bu sığınacaq şəhərləri
verdilər: Şekemlə otlaqlarını, Gezerlə otlaqlarını,
22 Qivsayimlə otlaqlarını, Bet-Xoronla otlaqlarını
verdilər. Bunlar cəmi dörd şəhər idi. 23 Dan
qəbiləsindən bu şəhərləri verdilər: Elteqe ilə
otlaqlarını, Gibbetonla otlaqlarını, 24 Ayyalonla
otlaqlarını, Qat-Rimmonla otlaqlarını. Bunlar da
dörd şəhər idi. 25 Menaşşe qəbiləsinin yarısından
isə bu şəhərləri verdilər: Taanakla otlaqlarını,
Qat-Rimmonla otlaqlarını. Bunlar isə iki şəhər idi.
26 Digər Qohat övladlarına nəsillərinə görə verilən
bütün şəhərlər otlaqları ilə birlikdə on şəhər idi.

27 Levililərin nəsillərindən Gerşon övladlarına

Menaşşe qəbiləsinin yarısından qatillər üçün bu
sığınacaq şəhərləri verdilər: Başandakı Qolanla
otlaqlarını, Beeştera ilə otlaqlarını verdilər. Bunlar
iki şəhər idi. 28 İssakar qəbiləsindən Qişyonla
otlaqlarını, Davratla otlaqlarını, 29 Yarmutla
otlaqlarını, En-Qannimlə otlaqlarını verdilər.
Bunlar dörd şəhər idi. 30 Aşer qəbiləsindən
Mişalla otlaqlarını, Avdonla otlaqlarını, 31 Xelqatla
otlaqlarını, Rexovla otlaqlarını verdilər. Bunlar
dörd şəhər idi. 32 Naftali qəbiləsindən qatillər
üçün sığınacaq şəhəri olan Qalileyadakı Qedeşlə
otlaqlarını, Xammot-Dorla otlaqlarını və Qartanla
otlaqlarını verdilər. Bunlar üç şəhər idi.
33 Nəsillərinə görə Gerşonluların bütün şəhərləri
otlaqları ilə birlikdə on üç şəhər idi.

34 Levililərdən olan Merari övladlarının
nəsillərinə bu şəhərləri verdilər: Zevulun
qəbiləsindən Yoqneamla otlaqlarını, Qarta ilə
otlaqlarını, 35 Dimna ilə otlaqlarını, Nahalalla
otlaqlarını. Bunlar dörd şəhər idi. 36 Onlara
Ruven qəbiləsindən Beserlə otlaqlarını, Yahsa ilə
otlaqlarını, 37 Qedemotla otlaqlarını, Mefaatla
otlaqlarını verdilər. Bunlar dörd şəhər idi;
38 Qad qəbiləsindən qatillər üçün sığınacaq
şəhəri olan Gileaddakı Ramotla otlaqlarını,
Maxanayimlə otlaqlarını, 39 Xeşbonla otlaqlarını,
Yazerlə otlaqlarını verdilər. Bunlar dörd şəhər
idi. 40 Bunların hamısı Merari övladlarının, yəni
Levililərdən qalan nəsillərin şəhərləri idi. Onların
püşkü on iki şəhərə düşmüşdü.

41 İsrail övladlarının irsi arasında Levililərin bütün
şəhərləri otlaqları ilə birlikdə qırx səkkiz şəhər idi.

42 Bu şəhərlərin hər birinin ətrafında otlaqları var
idi. Şəhərlərin hamısı belə idi.

### *Vəd olunmuş torpağın İsrailə verilməsi barədə Rəbbin sözünün yerinə yetirilməsi*

43 Rəbb atalarına etdiyi anda görə vəd etdiyi
bütün torpağı İsraillilərə verdi. Onlar bu torpağa
sahib oldular və orada məskən saldılar. 44 Rəbb
atalarına etdiyi anda görə hər şeydə onlara hər
tərəfdən dinclik verdi və bütün düşmənlərindən
heç biri onların qarşısında dura bilmədi. Rəbb
bütün düşmənlərini onlara təslim etdi. 45 Rəbbin
İsrail nəslinə söylədiyi bütün yaxşı sözlərdən heç
biri boşa çıxmadı, hamısı yerinə yetdi.

# 22

### *Şərq qəbilələrinin qayıtması*

1 O zaman Yeşua Ruvenliləri, Qadlıları, Menaşşe
qəbiləsinin yarısını çağırıb dedi: 2 * «Siz Rəbbin
qulu Musanın əmr etdiyi hər şeyə əməl etdiniz və
mənim sizə əmr etdiyim hər şeydə sözümə qulaq
asdınız. 3 Bu günə qədər keçən uzun müddət
ərzində soydaşlarınızı tərk etmədiniz və Allahınız
Rəbbin sizə buyurduğu işlərə əməl etdiniz. 4 Ona
görə də Allahınız Rəbb soydaşlarınıza vəd etdiyi
kimi əmin-amanlıq verdi. İndi Rəbbin qulu Mu-
sanın İordan çayının o tərəfində sizə mülk olaraq
verdiyi torpağa, öz çadırlarınıza qayıdın. 5 Ancaq
Rəbbin qulu Musanın sizə buyurduğu əmrə və qa-
nuna əməl etməyə səylə çalışın. Allahınız Rəbbi
sevin, tamamilə Allahın göstərdiyi yolla gedin

* **22:2** Say. 32:20-32; Yeşua 1:12-15

və əmrlərinə əməl edin, Ona bağlanın, bütün
qəlbinizlə, bütün varlığınızla yalnız Ona qulluq
edin». 6 Yeşua onlara xeyir-dua verib yola saldı və
onlar çadırlarına qayıtdılar.
7 Musa Başanda Menaşşe qəbiləsinin yarısına
irs torpağı vermişdi. Yeşua isə İordan çayının
qərb tərəfində bu qəbilənin o biri yarısına soy-
daşları arasında irs torpağı verdi. Yeşua on-
ları çadırlarına göndərən zaman xeyir-dua verdi.
8 Onlara belə dedi: «İndi öz çadırlarınıza çoxlu var-
dövlətlə qayıdırsınız. Özünüzə xeyli heyvan, qızıl-
gümüş, tunc, dəmir və çoxlu paltar götürmüsünüz.
Düşmənlərinizdən qarət etdiyiniz bu malı soy-
daşlarınıza paylayın».
9 Ruven övladları, Qad övladları, Menaşşe
qəbiləsinin yarısı Kənan torpağındakı Şilodan,
İsrail övladlarının yanından qayıtdılar. Onlar Rəbbin
əmrinə görə Musa vasitəsilə sahib olduqları Gilead
torpağına – mülk olaraq onlara verilən torpağa
yola düşdülər.

### *İordan çayının o tayında qoyulmuş qurbangah barədə mübahisə*

10 Onlar Kənan torpağında olan İordan çayının
yanındakı Gelilota çatdılar. Orada – İordan çayının
yanında Ruven övladları, Qad övladları və Menaşşe
qəbiləsinin yarısı bir qurbangah – möhtəşəm
görünüşlü qurbangah qurdular. 11 İsrail övladları
bunu eşitdilər: «Budur, Ruven övladları, Qad
övladları və Menaşşe qəbiləsinin yarısı Kənan
torpağının sərhədində – İordan çayının yanındakı
Gelilotda, İsrail övladlarına aid olan tərəfdə bir

qurbangah qurub». 12 İsrail övladları bunu eşidəndə
bütün İsrail övladlarının icmasını onlara qarşı
döyüşə çıxmaq üçün Şiloya çağırdılar.
13 İsrail övladları Gilead torpağına, Ruven
övladlarının, Qad övladlarının və Menaşşe
qəbiləsinin yarısının yanına kahin Eleazar oğlu
Pinxası, 14 onunla birlikdə İsrail qəbilələrinin
hər biri üçün nəsil rəhbəri olmaqla on rəhbər
göndərdilər. Onların hər biri İsrail tayfaları
arasında nəsil başçıları idi. 15 Onlar Gilead
torpağına, Ruven övladlarının, Qad övladlarının və
Menaşşe qəbiləsinin yarısının yanına gələrək belə
dedi: 16 * «Rəbbin icması hamılıqla belə deyir:
“Nədir İsrailin Allahına belə xəyanət etdiniz?
Niyə Rəbbin yolundan döndünüz və bu gün
özünüzə başqa qurbangah quraraq Ona qarşı
üsyan etdiniz? 17 * Rəbbin icması üzərinə bəla
gətirən və bu günə qədər də təmizlənmədiyimiz
Peor günahı məgər bizə azlıq edir ki, 18 bu gün də
Rəbbin yolundan dönürsünüz? Əgər siz bu gün
Rəbbə qarşı üsyan etsəniz, O da sabah bütün İsrail
icmasına qəzəblənəcək. 19 Əgər sahib olduğunuz
torpaq murdardırsa, Rəbbin məskəninin yerləşdiyi
– Rəbbin mülkü olan torpağa keçin. Qoy torpaq
payınız bizim aramızda olsun. Allahımız Rəbbin
qurbangahından başqa özünüzə qurbangah
qurmaqla Rəbbə və bizə qarşı üsyan etməyin. 20 *
Zerah oğlu Akan məhv edilmək üçün həsr olunan
şeylərdən götürməklə xəyanət etmədimi? Ona görə

* **22:16** Qanun. 12:6 * **22:17** Say. 25:1-9 * **22:20** Yeşua 7:1-26

bütün İsrail icması üzərinə qəzəb gəlmədimi? Bu günahdan ötrü o adam tək özü məhv olmadı”».

21 Ruven övladları, Qad övladları, Menaşşe qəbiləsinin yarısı İsrail tayfalarının başçılarına cavab verdilər: 22 «Qadir Allah Rəbb! Qadir Allah Rəbb! O bilir, qoy İsrail də bilsin. Əgər Rəbbin əleyhinə çıxıb üsyan edəriksə, qoy bu gün O bizə qənim olsun! 23 Əgər Rəbbin yolundan dönmək üçün üzərində yandırma qurbanları, taxıl təqdimləri, ünsiyyət qurbanları təqdim etməkdən ötrü özümüzə başqa bir qurbangah qurmuşuqsa, qoy Rəbb Özü bunun cavabını bizdən istəsin. 24 Amma bunu qorxaraq bu məqsədlə etdik ki, sabah sizin övladlarınız övladlarımıza deməsinlər: “İsrailin Allahı Rəbdən sizə nə? 25 Ey Ruven övladları, ey Qad övladları! Rəbb sizinlə bizim aramızda İordan çayını sərhəd qoydu. Rəbdə sizin payınız yoxdur”. Bununla da sizin övladlarınız bizim övladlarımızı Rəbb qorxusundan döndərə bilər. 26 Ona görə belə dedik: “Özümüzə bir qurbangah qurmaq üçün işə başlayaq”. Bu qurbangah yandırma qurbanı və başqa qurbanlar üçün deyil, 27 bizimlə sizin aranızda və sonrakı nəsillərimiz arasında şahid olmaq üçündür. Ta ki biz də yandırma qurbanlarımız, başqa qurbanlarımız və ünsiyyət qurbanlarımızla Rəbbin hüzurunda Ona xidmət edək. Sabah sizin övladlarınız da bizim övladlarımıza “Rəbdə sizin payınız yoxdur” deməsinlər. 28 Biz dedik: “Sabah bizə yaxud nəsillərimizə belə desələr, biz də belə cavab verərik ki, atalarımızın qurduğu Rəbbin qurbangahının surətinə baxın.

Bu yandırma qurbanlar və başqa qurbanlar
üçün deyil, yalnız sizinlə bizim aramızda şahid
olmaq üçündür”. 29 Rəbbə qarşı üsyan etmək,
bu gün Rəbbin yolundan dönmək, yandırma
qurbanı, taxıl təqdimləri, başqa qurbanlar üçün
Allahımız Rəbbin məskəni qarşısında olan Öz
qurbangahından başqa qurbangah qurmaq qoy
bizdən uzaq olsun».

30 Kahin Pinxas, onunla birgə olan icma
rəhbərləri, yəni İsrail tayfalarının başçıları
Ruven övladlarının, Qad övladlarının və Menaşşe
övladlarının söylədiklərini eşidəndə bu sözləri
bəyəndilər. 31 Kahin Eleazar oğlu Pinxas və
rəhbərlər Ruven övladlarına, Qad övladlarına
və Menaşşe övladlarına dedilər: «Bu gün bildik
ki, Rəbb aramızdadır, çünki Ona qarşı bu
xəyanəti etmədiniz və İsraillilləri Rəbbin əlindən
qurtardınız».

32 Kahin Eleazar oğlu Pinxas və rəhbərlər Ruven
övladları və Qad övladlarının yanından, Gilead tor-
pağından Kənan torpağına İsrail övladlarının yanına
qayıdıb onlara xəbər gətirdilər. 33 Bu işi İsrail
övladları da bəyəndilər. Onlar Allaha şükür et-
dilər və Ruven övladlarına, Qad övladlarına qarşı
müharibə etmək və onların yaşadıqları ölkəni viran
etmək fikrindən döndülər.

34 Ruven övladları və Qad övladları qurbangahın
adını «Şahid» qoydular. Çünki onlar dedi: «Bu qur-
bangah Rəbbin Allah olduğuna aramızda şahiddir».

# 23

## *Yeşuanın vəsiyyəti*

1 Rəbb İsraillilərə hər tərəfdən düşmənlərindən
əmin-amanlıq verəndən sonra uzun müddət keçdi.
Artıq Yeşua qocalıb yaşa dolmuşdu. 2 O bütün İsraili,
ağsaqqalları, başçıları, hakimləri və məmurları
çağırdı və onlara dedi: «Mən qocalmışam, yaşım
çoxdur. 3 Allahınız Rəbbin sizin uğrunuzda bütün
bu millətlərə nə etdiyini gördünüz, çünki Allahınız
Rəbb Özü sizin üçün döyüşdü. 4 Budur, İordan
çayından qərb tərəfə Böyük dənizə qədər qırdığım
bütün millətlərin torpaqları ilə birlikdə qalan bu
millətlərin də torpaqlarını qəbilələriniz üçün irs
olaraq payladım. 5 Allahınız Rəbb Özü onları
qarşınızdan silib atacaq və onları gözünüzün
qarşısından qovacaq. Allahınız Rəbbin sizə söz
verdiyi kimi onların torpağına sahib olacaqsınız.
6 Musanın Qanun kitabında yazılan hər şeyi
saxlayıb yerinə yetirmək üçün çox diqqətli olun
ki, ondan nə sağa, nə də sola dönəsiniz. 7 Sizinlə
qalan bu millətlərə qarışmayın, allahlarının adını
çəkməyin, onlara and içməyin, onlara qulluq
etməyin, onlara səcdə qılmayın. 8 Yalnız bu günə
qədər etdiyiniz kimi Rəbbə etibar edin. 9 Çünki
Rəbb qarşınızdan böyük və qüvvətli millətləri
qovdu, ona görə də bu günə qədər sizin qarşınızda
heç kim dura bilmədi. 10 * * Sizdən bir adam min
adamı qova bildi, çünki Allahınız Rəbb sizə dediyi
kimi sizin üçün Özü döyüşdü. 11 Öz canınız xatirinə
Allahınız Rəbbi sevməyə cəhd edin. 12 Əgər geri
dönsəniz, sizin aranızda yaşayan bu millətlərdən
qalanlara bağlansanız, onlarla qohum olsanız,

* **23:10** Qanun. 32:30 * **23:10** Qanun. 3:22

onlarla qaynayıb-qarışsanız, 13 yaxşı bilin ki,
Allahınız Rəbb bu millətləri gözünüz qarşısından
bir daha qovmayacaq. Allahınız Rəbbin verdiyi
bu nemətli torpaq üzərindən yox olana qədər
onlar sizin üçün kəmənd, tələ, böyürlərinizə qamçı
və gözlərinizə tikan olacaq.

14 Budur, bu gün mən də hamı kimi dünyadan
köçəcəyəm. Bütün qəlbinizlə və varlığınızla
bilirsiniz ki, Allahınız Rəbbin haqqınızda dediyi
bütün yaxşı şeylərdən heç biri boşa çıxmadı. Hamısı
sizin üçün yerinə yetdi. Onun sözlərindən heç
biri boşa çıxmadı. 15 Allahınız Rəbbin sizə vəd
etdiyi bütün nemətli şeylər necə yerinə yetdisə,
verdiyi bu yaxşı torpaq üzərindən sizi həlak
edənə qədər bütün pis şeyləri də Rəbb beləcə sizin
başınıza gətirəcək. 16 Əgər Allahınız Rəbbin sizə
buyurduğu əhdi pozsanız, gedib başqa allahlara
qulluq etsəniz, onlara səcdə qılsanız, Rəbbin qəzəbi
sizə qarşı alovlanacaq və sizə verdiyi nemətli
torpaq üzərindən tezliklə yox olacaqsınız».

# 24

## *Yeşuanın və İsrail xalqının Şekemdə əhd bağlaması*

1 Yeşua İsrailin bütün qəbilələrini Şekemə topladı
və İsrailin ağsaqqallarını, başçılarını, hakimlərini və
məmurlarını çağırdı. Onlar Allahın hüzurunda dur-
dular. 2 * Yeşua bütün xalqa dedi: «İsrailin Al-
lahı Rəbb belə deyir: “İbrahimin, Naxorun atası
Terah və atalarınız keçmişdə Fərat çayının o biri

* **24:2** Yar. 11:27

tayında yaşayırdılar. Onlar başqa allahlara qul-
luq edirdilər. 3 * * Atanız İbrahimi Fərat çayının
o biri tayından gətirib bütün Kənan torpağında
gəzdirdim, nəslini çoxaldaraq ona İshaqı verdim.
4 * * * İshaqa Yaqubu və Esavı verdim. Esavın
mülk sahibi olması üçün Seir dağını ona verdim.
Yaqubla övladları isə Misirə getdilər. 5 * Musa
ilə Harunu göndərib Misiri bəlalara düçar et-
dim və sonra sizi oradan çıxartdım. 6 * Ata-
larınızı Misirdən çıxartdım, siz Qırmızı dənizə tərəf
gəldiniz. Misirlilər Qırmızı dənizə qədər döyüş
arabaları və süvarilərlə atalarınızı təqib etdilər.
7 Onlar Rəbbə fəryad edəndə O, Misirlilərlə sizin
aranızda qaranlıq yaratdı, onların üstünə dənizi
gətirdi, onlar suların altında qaldılar. Misirdə et-
diyim şeyləri gözünüzlə gördünüz və uzun müddət
səhrada yaşadınız.

8 * Sizi İordan çayının şərq tərəfində yaşayan
Emorlular torpağına gətirdim, onlar sizinlə vu-
ruşanda onları sizə təslim etdim, torpaqlarını isə
mülk olaraq aldınız və hamısını qarşınızdan yox
etdim. 9 * Moav padşahı Sippor oğlu Balaq qalxıb
İsraillilərlə vuruşdu və xəbər göndərib Beor oğlu
Bilamı sizə lənət etmək üçün çağırdı. 10 Lakin
Bilamı eşitmək istəmədim. O da ancaq xeyir-
dua verdi. Beləcə sizi onun əlindən azad et-
dim. 11 * * İordan çayından keçib Yerixoya gəldiniz.

* **24:3** Yar. 12:1-9 * **24:3** Yar. 21:1-3 * **24:4** Yar. 25:24-26 * **24:4** Yar. 36:8; Qanun. 2:5 * **24:4** Yar. 46:1-7 * **24:5** Çıx. 3:1–12:42 * **24:6** Çıx. 14:1-31 * **24:8** Say. 21:21-35 * **24:9** Say. 22:1–24:25 * **24:11** Yeşua 3:14-17 * **24:11** Yeşua 6:1-21

Yerixo adamları, Emorlular, Perizlilər, Kənanlılar,
Xetlilər, Qirqaşlılar, Xivlilər, Yevuslular sizə qarşı
vuruşdular, lakin onları sizə təslim etdim. 12 Sizin
önünüzcə eşşəkarısı çıxarıb onunla Emorluların
iki padşahını qarşınızdan qovdum. Bu iş sizin
qılıncınızla və ox-kamanınızla olmadı. 13 * Üzərində
işləmədiyiniz bir torpağı, tikmədiyiniz şəhərləri
sizə verdim ki, orada yaşayasınız. Salmadığınız
bağlardan və zeytunluqlardan yeyirsiniz”.
14 Ona görə də Rəbdən qorxun, səmimiyyətlə
və sədaqətlə Ona qulluq edin. Fərat çayının
o biri tərəfində və Misirdə atalarınızın qulluq
etdiyi allahları atın, yalnız Rəbbə qulluq edin.
15 Əgər Rəbbə qulluq etmək gözünüzdə pisdirsə,
bu gün kimə qulluq edəcəyinizi özünüz seçin.
Atalarınızın qulluq etdikləri Fərat çayının o
tayındakı allahlaramı, yoxsa torpaqlarında
yaşadığınız Emorluların allahlarınamı qulluq
edəcəksiniz? Amma mən və mənim evimdəkilər
Rəbbə qulluq edəcək».
16 Xalq cavab verdi: «Rəbbi tərk edib başqa
allahlara qulluq etmək qoy bizdən uzaq olsun!
17 Çünki bizi və atalarımızı Misir torpağından –
köləlik diyarından çıxaran, gözümüzün qarşısında
bu böyük əlamətləri göstərən və getdiyimiz bu
yolda, arasından keçdiyimiz bütün xalqlar arasında
bizi qoruyan yalnız Allahımız Rəbdir. 18 Rəbb
bütün xalqları, bu torpaqda yaşayan Emorluları
qarşımızdan qovdu. Biz də Rəbbə qulluq edəcəyik,
çünki Allahımız Odur».
19 Yeşua xalqa dedi: «Rəbbə qulluq edə
bilməzsiniz, çünki O, müqəddəs Allahdır. O, qısqanc

* **24:13** Qanun. 6:10-11

Allahdır, qanunsuzluğunuzu və günahlarınızı
bağışlamayacaq. 20 Əgər Rəbbi tərk edib yad
allahlara qulluq etsəniz, sizə yaxşılıq edən Rəbb
əleyhinizə dönüb pislik edəcək və sizi məhv
edəcək». 21 Xalq Yeşuaya dedi: «Xeyr, ancaq Rəbbə
qulluq edəcəyik». 22 Yeşua xalqa dedi: «Qulluq
etmək üçün Rəbbi seçdiyinizə siz özünüz şahidsiniz».
Onlar «biz şahidik» dedilər. 23 Yeşua dedi: «Elə isə
indi aranızda olan yad allahları atın, ürəyinizi
İsrailin Allahı Rəbbə meyl etdirin». 24 Xalq Yeşuaya
dedi: «Allahımız Rəbbə qulluq edəcəyik və yalnız
Onun sözünə qulaq asacağıq».
25 Yeşua o gün xalqla əhd bağladı. Onlar üçün
Şekemdə qanun və hökm qoydu. 26 Yeşua bu sözləri
Allahın Qanun kitabına yazdı. Sonra böyük bir
daş götürüb Rəbbin Müqəddəs məkanının yanında
olan palıd ağacı altında yerləşdirdi. 27 Yeşua bütün
xalqa dedi: «Budur, bu daş bizə qarşı şahid olacaq,
çünki Rəbbin bizə dediyi bütün sözləri o eşitdi. Qoy
bu daş Allahınızı inkar etməmək üçün sizə qarşı
şahid olsun». 28 Bundan sonra bütün xalqı irs aldığı
torpaqlara göndərdi.

### *Yeşuanın ölümü*

29 Bu hadisələrdən sonra Rəbbin qulu Nun oğlu
Yeşua yüz on yaşında vəfat etdi. 30 * Onu Qaaş
dağının şimalında, Efrayimin dağlıq bölgəsindəki
Timnat-Serahda irs olan torpağının sahəsində
dəfn etdilər.
31 Yeşuanın bütün ömrü boyu və ondan sonra sağ
qalan, Rəbbin İsrail üçün etdiyi bütün işləri bilən

---

* **24:30** Yeşua 19:49-50

ağsaqqalların ömrü boyu İsrail xalqı Rəbbə qulluq etdi.

### *Yusifin sümüklərinin Şekemdə basdırılması*

32 * * İsraillilər Misirdən çıxarkən Yusifin
sümüklərini özləri ilə götürmüşdülər. Bunları
Yaqubun Şekemdəki tarlasında basdırdılar. Yaqub
bu tarlanı Şekemin atası Xamorun övladlarından
yüz parça gümüşə satın almışdı və bu torpaq Yusif
övladlarının irsi oldu.
33 Bundan sonra Harun oğlu Eleazar öldü. Onu
Efrayimin dağlıq bölgəsində oğlu Pinxasa verilən
təpədə dəfn etdilər.

---

* **24:32** Yar. 50:24-25; Çıx. 13:19 * **24:32** Yar. 33:19; Yəh. 4:5; Həv. 7:16

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http://creativecommons.org/licenses/by-nc-nd/3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.
You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:
You must give Attribution to the work.
You do not sell this work for a profit.
You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.
Permissions beyond the scope of this license may be available if you contact us with your request.
This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.
You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:
You include the above copyright and source information.
You do not sell this work for a profit.
You do not change any of the words or punctuation of the Scriptures.
Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

PDF generated using Haiola and XeLaTeX on 11 Nov 2022 from source files dated 9 Oct 2020
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985